QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 243 (5715) **22 dekabr** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qәpik**

# Azərbaycanı daha təhlükəsiz, sabit və firavan gələcəyə aparan GÜCLÜ LİDER!



4

**Azərbaycan tələbələrinin II qurultayı keçirilib**




10

**Erməni KİV-ləri Paşinyanın milli maraqları qoruya bilmədiyini yazır**



11

**"The Guardian"ın çirkin kampaniyası təzyiq xarakteri daşısa da...**



# Prezident İlham Əliyev Bakı neft emalı zavodunda bitum qurğusunun və maye qazdoldurma məntəqəsinin açılışında iştirak edib





***Heydər Əliyev adına Bakı neft emalı zavodunda aparılan yenidənqurma və modernləşdirmə layihəsinin birinci mərhələsi çərçivəsində inşa edilən yeni bitum qurğusunun və maye qazdoldurma məntəqəsinin dekabrın 21-də açılış mərasimi olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.***

Dövlət Neft Şirkətinin - SOCAR-ın prezidenti Rövnəq Abdullayev görülən işlərlə bağlı dövlətimizin başçısı İlham Əliyevə məlumat verdi.

Bildirildi ki, bitum qurğusu istismara verildikdən sonra burada illik istehsal 250 min tondan 400 min tona çatdırılacaq. Bu həcm ölkədaxili tələbatın təminatı üçün nəzərdə tutulur. Bu qurğuda “PEN 40-60” markalı yüksək keyfiyyətli bitum istehsal ediləcək. Növbəti mərhələlərdə AVRO-5 standartına cavab verən dizel və benzin yanacağının istehsalı nəzərdə tutulur və artıq bu istiqamətlərdə də işlər sürətlə davam etdirilir.

Heydər Əliyev adına Bakı neft emalı zavodunda yenidənqurma işlərinin aparılması, həmçinin keçmiş “Azərneftyağ” neft emalı zavodunun ərazisinin mərhələli şəkildə boşaldılaraq, “Ağ şəhər” layihəsinə təhvil verilməsi nəzərdə tutulduğundan, yeni bitum istehsalı qurğusunun tikintisi zəruri idi. Bitum qurğusu 7,7 hektar ərazini əhatə edir. Qurğunun tikintisi zamanı 150 min kubmetrə yaxın torpaq işləri görülüb, 650 tondan çox metal konstruksiyadan, 530 tondan çox borudan istifadə olunub. 2016-cı ildə Avstriyanın “Poerner” şirkəti ilə yeni bitum qurğusunun inşası üzrə detallı layihələndirmə, satınalma və tikintinin idarə edilməsi müqaviləsi imzalanıb. 2017-ci ilin aprel ayından tikintinin podratçısı “Azfen” şirkəti tərəfindən qurğunun inşasına başlanılıb. Tikinti prosesinə 400 yerli işçi və mütəxəssis cəlb olunub. Layihə qrafikə uyğun başa çatdırılıb.

Maye qazdoldurma stansiyası 7 avtoçənə və 5 çən vaqona yükləmə qolundan ibarətdir. Bu məntəqədən il ərzində 180 min ton propan-propilen, 100 min ton mayeləşmiş qazın avtoçən və dəmir yolu, 178 min ton butan-butilen fraksiyasının isə boru xətti, lazım olduğu təqdirdə avtoçən və ya dəmir



yolu ilə nəqli nəzərdə tutulub. Propan-propilen və butan-butilen fraksiyaları “Azərikimya” İstehsalat Birliyinin müəssisələrində xammal kimi işlənəcək, əmtəə məhsulu kimi isə məişətdə və nəqliyyat vasitələrində istifadəsi üçün satışa çıxarılacaq.

Prezident İlham Əliyevə Heydər Əliyev adına Bakı neft emalı zavodunda aparılan yenidənqurma və modernləşdirmə layihəsi barədə məlumat verildi. Ulu Öndərin adını daşıyan neft emalı zavodunun modernləşdirmə layihəsi tarixi əhəmiyyətə malikdir. Layihə tamamlandıqdan sonra bu zavod ölkəmizi yüksək keyfiyyətli yanacaqla təmin edəcək, Azərbaycanın ixrac potensialını artıracaq və ölkəmizin regiondakı mövqeyinin daha da möhkəmlənməsinə xidmət göstərəcək. Artıq bu mühüm və tarixi layihənin ilkin mərhələsi tamamlanıb. Modernləşdirmə layihəsinin yekunlaşan birinci mərhələsi üç əsas hissədən ibarətdir. Bu hissələrə yeni bitum qurğusu ilə yanaşı, maye qazdoldurma stansiyası və sonrakı mərhələlərdə tikilməsi nəzərdə tutulan qurğuların yerləşəcəyi ərazilərdə söküntü və təmizləmə işlərinin aparılaraq inşaat üçün hazırlanması daxildir.

Sonrakı mərhələlərdə tikilməsi nəzərdə tutulan 8 əsas qurğunun yerinin köhnə qurğulardan təmizlənməsi, modernləşdirmənin ümumi gedişatı üçün mühüm məsələ olan torpaq tədqiqat işlərinin görülməsi və ərazinin tikinti-quraşdırma üçün hazırlanması da artıq öz həllini tapıb.

Heydər Əliyev adına neft emalı zavodunda yenidənqurma işləri 3 mərhələdə icra olunur. Layihənin 2020-ci ilin sonunadək planlaşdırılan ikinci mərhələsində AVRO-5 keyfiyyət standartına cavab verən dizel yanacağının alınması, 2021-ci ilin birinci yarısına nəzərdə tutulan üçüncü mərhələdə isə eyni keyfiyyət standartına cavab verən A-92, 95 və 98 benzin məhsullarının istehsalı üçün müvafiq yeni qurğuların inşası həyata keçiriləcək. Aparılacaq işlər zavodun illik emal gücünü 7,5 milyon tona çatdırmaqla “Azərikimya” İstehsalat Birliyinin xammalla təchizatının sabit şəkildə təmin edilməsinə imkan verəcək. Zavodda aparılan yenidənqurma işləri daxili bazarın yüksək keyfiyyətli yanacağa olan tələbatını tam ödəyəcək, bununla yanaşı, Bakıda karbon emissiyasının miqdarının azalmasına, ekoloji vəziyyətin yaxşılaşdırılmasına mühüm töhfə verəcək.

Prezident İlham Əliyev yeni bitum qurğusunu işə saldı. Yeni qurğu enerjiyə daha çox qənaət etməklə, ekoloji durumun yaxşılaşdırılmasına, zavodun istismar xərclərinin optimallaşdırılmasına mühüm töhfə verəcək. Bu qurğunun istismara verilməsi nəticəsində əsasən yol inşaatında istifadə olunan asfalt-bitum maddəsinin keyfiyyəti yüksələcək. Asfalt örtüyünün mühüm tərkib hissəsi olan bitum dünyada həm də boya və mürəkkəb istehsalında, kabel, boru, dam və digər səthlərin izolyasiya və germetikliyinin təmin edilməsində, müxtəlif inşaat işlərində istifadə olunur.

## Rəsmi xronika

Prezident İlham Əliyev Apellyasiya instansiyası məhkəmələri sədrlərinin müavinlərinin və məhkəmə kollegiyaları sədrlərinin təyin edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev bir sıra birinci instansiya məhkəmələri sədrlərinin və Bakı Ağır Cinayətlər Məhkəməsi sədrinin müavininin təyin edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Şükür Babayevin Naxçıvan Muxtar Respublikasının Culfa Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Gülağa İslamovun Bakı şəhəri Xəzər Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev “Azərbaycan Respublikasında 2019-cu il üçün yaşayış minimumu haqqında” Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1352-VQ nömrəli Qanununun tətbiqi barədə Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1362-VQD nömrəli Qanununun tətbiqi və “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 6 mart tarixli 377 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev “Dövlət borcu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1359-VQD nömrəli Qanununun tətbiqi və “Dövlət borcu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 avqust təarixli 610 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

# Binəqədi Rayon Məhkəməsinin yeni inzibati binasının açılışı olub

## *Prezident İlham Əliyev açılışda iştirak edib*

***Dekabrın 21-də Binəqədi Rayon Məhkəməsinin yeni inzibati binasının açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib. Ədliyyə naziri Fikrət Məmmədov dövlətimizin başçısına Azərbaycan Hökumətinin Dünya Bankı ilə birgə maliyyələşdirdiyi və Ədliyyə Nazirliyinin həyata keçirdiyi "Mütərəqqi ədliyyə xidmətləri və müasir məhkəmə infrastrukturu" layihəsi çərçivəsində istifadəyə verilən və tikintisi aparılan müasir məhkəmə bina və kompleksləri barədə məlumat verdi.***



Prezident İlham Əliyev binanın rəmzi açılışını bildirən lenti kəsdi.

Son illərdə ölkəmizdə 16 yeni müasir məhkəmə binası tikilib, beşinin inşası isə davam etdirilir. İndiyədək Prezident İlham Əliyev paytaxtın Sabunçu, Yasamal, Nərimanov, habelə Şəki, Oğuz rayon məhkəmələri binalarının açılışında iştirak edib, İmişli rayon məhkəməsində yaradılan şəraitlə tanış olub.

Dövlət büdcəsinin vəsaiti hesabına tikilən Binəqədi Rayon Məhkəməsinin yeni binasının inşası da müasir standartlara uyğun və yüksək keyfiyyətlə aparılıb.





BMT-nin Əlillərin Hüquqları Haqqında Konvensiyasına uyğun olaraq binada əlillərin sərbəst hərəkəti üçün də bütün şərait var. Binəqədi Rayon Məhkəməsi təxminən 265 minə yaxın əhaliyə xidmət edir. Burada 80 nəfərdən çox, o cümlədən 19 hakim, 60 nəfər məhkəmə aparatı işçisi çalışacaq. Binada ümumilikdə 12 məhkəmə iclas zalı fəaliyyət göstərir. Azərbaycan Prezidentinin "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında Sərəncamının icrası çərçivəsində burada "elektron məhkəmə" və "elektron icra" informasiya sistemlərinin tətbiq olunması üçün bütün zəruri infrastruktur yaradılıb və bina müasir İKT avadanlığı ilə təchiz olunub. Məhkəmə zallarında proseslərin daha dəqiq və sürətlə protokollaşdırılmasına xidmət edən, audio-video yazılışları aparan "Femida" sistemi, videokonfransların, təqdimatların keçirilməsi, elektron sənəd dövriyyəsi və məhkəmə işlərinin idarəetmə sistemi üçün qurğular quraşdırılıb. Təqsirləndirilən şəxslər zalda beynəlxalq standartlara uyğun xüsusi ayrılan şüşə otaqda saxlanılır. Burada onların vəkillə birbaşa əlaqə saxlamaları üçün müvafiq qurğular var.

Binəqədi Rayon Məhkəməsi də inzibati və ictimai zonalara bölünür. Hər iki zonanın girişi ayrıdır. İnzibati zona hakimlər və məhkəmə işçiləri, ictimai zona isə vətəndaşlar üçündür. İctimai zonada vəkillər, dövlət ittihamçıları, icra məmurları və Ədliyyə Nazirliyinin icra şöbəsinin əməkdaşları üçün otaqlar var. Binada hakimlər və vətəndaşlar arasında qeyri-prosessual münasibətlər məhdudlaşdırılır və onlar yalnız iclas zallarında görüşürlər. Bu isə şəffaflığın təmin edilməsində mühüm amildir. Binada vətəndaşların müraciət imkanlarının asanlaşdırılması və onların məlumatlılığının təmin edilməsi məqsədilə məlumat nöqtələri, habelə müasir elektron informasiya daşıyıcıları, o cümlədən köşklər, lövhələr quraşdırılıb ki, bu da vətəndaşlara məhkəmə prosesləri və onların tarixi, vaxtı, məhkəmə zalı, hakimlər və digər məsələlərlə bağlı informasiyanı rahat əldə etməyə imkan yaradır. Bununla yanaşı, binada arxiv, maddi sübutların saxlanılması, vətəndaşların qəbulu, təqsirləndirilən şəxslərin vəkillə görüşü, dövlət ittihamçıları üçün otaqlar və tibb məntəqəsi mövcuddur. Konfrans zalında həm beynəlxalq, həm də ölkə səviyyəsində tədbirlər keçirmək mümkündür. Həmçinin hakimlərə və məhkəmə işçilərinə Ədliyyə Nazirliyinin iclaslarına, müşavirə və toplantılarına, eləcə də Ali Məhkəmənin Plenumuna birbaşa qoşulmaq imkanı yaradılıb. Zalda tədris kurslarının keçirilməsi üçün də zəruri infrastruktur var. Buradakı kitabxana məhkəmə-hüquq sahəsinə aid ədəbiyyatla, Azərbaycan həqiqətlərini əks etdirən kitablarla zəngindir.

Ədliyyə və məhkəmə sahəsində tətbiq olunan innovasiyalarla tanış olan Prezident İlham Əliyevə notariat hərəkətlərinin rəsmiləşdirilməsində tətbiq olunan rəqəmsal texnologiyalar, o cümlədən notariat ofislərini vahid şəbəkədə birləşdirən "Elektron notariat" informasiya sistemi barədə məlumat verildi. Dövlətimizin başçısının qanunvericilik təşəbbüsü ilə qəbul edilmiş və Azərbaycan ədliyyəsinin 100 illik yubileyi ərəfəsində qüvvəyə minən "Notariat haqqında" Qanuna edilən əsaslı dəyişikliklərin daha müasir texnologiyaların və innovasiyaların tətbiqinə geniş imkan yaratdığı qeyd olundu.

Sonra səyyar notariat çantası, elektron ədliyyə köşkü və mobil notariat qovluğu nümayiş etdirildi.

Bildirildi ki, səyyar xidmətlərə tələbatın artması ilə əlaqədar və əhalinin məmnunluğunun təmin edilməsi üçün müasir avadanlıqla təchiz olunan "Elektron notariat" informasiya sisteminə birbaşa çıxışı olan xüsusi çanta hazırlanıb. Notariuslar həmin çantalarla hər hansı məkana bağlı olmadan fiziki və hüquqi şəxslərə bütün növ notariat hərəkətləri üzrə səyyar xidmət göstərə bilərlər. Eyni zamanda, yeni qanuna əsasən məsafədən xidmətlərin göstərilməsini mümkün edən elektron ədliyyə köşkü də yaradılıb. Belə ki, təxirə salınmadan ədliyyə xidmətlərinə ehtiyac yarandığı yerlərdə, o cümlədən sərhəddə, hava və dəniz limanlarında, dəmir yolu vağzallarında quraşdırılacaq həmin köşklər notariuslarla videoəlaqə vasitəsilə notariat hərəkətinin rəsmiləşdirilməsinə və sənədlərin bilavasitə yerində əldə edilməsinə şərait yaradacaq. Həftənin bütün günləri 24 saat fəaliyyət göstərən bu innovativ qurğudan istifadə edərək borca görə ölkədən çıxışına məhdudiyyət qoyulmuş şəxslər ödənişləri həyata keçirə və məhdudiyyəti avtomatlaşdırılmış qaydada aradan qaldıra bilərlər. Dünya təcrübəsində rast gəlinməyən və Azərbaycan məhsulu olan mobil notariat qovluğunun tətbiqi nəticəsində istənilən şəxs ətrafında olan bütün notariat ofisləri və notariuslar, həmçinin notariat hərəkətlərinin rəsmiləşdirilməsi üçün ödənilməli rüsum və haqqın məbləğləri, tələb olunan sənədlər və notariat hərəkətinin aparılmasında iştirak etməli şəxslər barədə məlumat alacaq. Funksiyanın əsas özəlliyi isə şəxsin iştirakçısı olduğu bütün notariat hərəkətləri ilə bağlı sənədlərin vahid mənbədə - mobil telefonda saxlanılması, istənilən vaxt elektron versiyadan istifadə etməsi, eləcə də sənədin qüvvədən düşməsi barədə məlumatı dərhal alması dır.

Dövlətimizin başçısına cəza siyasətinin humanistləşdirilməsinə dair 2017-ci il fevralın 10-da imzalanan Sərəncamın icrası üzrə görülən işlər barədə də məlumat verildi, azadlıqdan məhrumetməyə alternativ cəzaların icrasında tətbiq olunan elektron nəzarət qurğuları, o cümlədən elektron qolbaqlar nümayiş etdirildi. Hazırda bütün ölkə üzrə 460-dan çox məhkuma elektron nəzarət olunur. Sərəncama əsasən ictimai işlərin formal icrasının qarşısının alınması, bu sahədə fəaliyyətin səmərəli təşkili ilə bağlı tədbirlər həyata keçirilir.

Son illərdə Azərbaycanda məhkəmə sistemində tətbiq edilən yeniliklər beynəlxalq aləmdə təqdir olunur. Bununla əlaqədar ötən il Azərbaycan Avropa Şurasının "Ədliyyənin Kristal Tərəzisi" mükafatına layiq görülüb. Bu il isə Avropa Şurası Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının prezidenti vəzifəsinə seçkilər keçirilib. Seçkilər quruma üzv 47 dövlətin nümayəndəsi tərəfindən gizli səsvermə yolu ilə aparılıb və Avropa Şurası tarixində ilk dəfə olaraq bu vəzifəyə Azərbaycan təmsilçisi seçilib.

Qurumun yeni rəhbəri, hakim Ramin Qurbanov Prezident İlham Əliyev ilə görüşdü. Qeyd edək ki, Avropa Şurasında belə yüksək vəzifəyə seçkilərdə nailiyyətin əldə edilməsində dövlətimizin başçısının uğurlu xarici siyasəti və ölkədə aparılan mütərəqqi məhkəmə-hüquq islahatları əhəmiyyətli rol oynayıb.

# Azərbaycan tələbələrinin II qurultayı keçirilib









***Dekabrın 21-də Təhsil, Gənclər və İdman nazirliklərinin birgə təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində Azərbaycan tələbələrinin II qurultayı keçirilib. Qurultayın keçirilməsi Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə Dövlət Proqramı"nda əksini tapıb.***

AZƏRTAC xəbər verir ki, əvvəlcə qurultay iştirakçıları Fəxri xiyabana gedərək ümummilli lider Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb. Sonra Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsi anılıb, məzarları üzərinə güllər qoyulub. Qurultay Azərbaycan Respublikasının dövlət himninin səsləndirilməsi ilə başlayıb.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın qurultay iştirakçılarına təbrik məktubunu Prezident Administrasiyasının humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva oxuyub.




Baş nazirin müavini Əli Əhmədov qurultayda çıxış edərək əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş gənclər siyasətini hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uğurla davam etdirdiyini deyib. Əli Əhmədov gənclərin və tələbələrin Azərbaycan əhalisinin əhəmiyyətli hissəsini təşkil etdiyini, onların ölkənin siyasi, iqtisadi, sosial həyatında mühüm rol oynadıqlarını qeyd edib və qurultayın işinə uğurlar arzulayıb.

Təhsil naziri Ceyhun Bayramov ölkəmizdə həyata keçirilən təhsil və gənclər siyasəti barədə ətraflı məlumat verərək tələbə-gənclərin dövlətin hərtərəfli diqqət və qayğısı ilə əhatə olunduğunu bildirib. Nazir "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın qəbul edilməsindən ötən 5 il ərzində ali təhsil sisteminin təkmilləşdirildiyini, universitetlərin kadr potensialı və maddi-texniki bazasının gücləndirildiyini, ali təhsilin əlçatanlığı istiqamətində mühüm addımların atıldığını qeyd edib. Vurğulayıb ki, ötən dövr ərzində Azərbaycan Avropa Ali Təhsil Məkanının bərabərhüquqlu üzvünə çevrilib, ali təhsil müəssisələrinin fəaliyyəti Bolonya prosesinin tələblərinə uyğunlaşdırılıb.

Nazir bildirib ki, bu il qəbul imtahanlarında rekord sayda - 41 minə yaxın gənc tələbə adını qazanıb, 3127 nəfər 600 baldan yüksək nəticə göstərib, 29 abituriyent 700 bal toplayıb. Beş yüzdən yuxarı bal toplayan 2090 gənc müəllimlik ixtisasını seçib ki, bu da gənclər arasında müəllim peşəsinə marağın artmasını sübut edir. Təhsilin əlçatanlığının təmin edilməsi məqsədilə 2019-2020-ci tədris ilində ali təhsil müəssisələrində dövlət sifarişli yerlərin əhəmiyyətli şəkildə artırılması nəzərdə tutulub.

Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə Bakı şəhərində 800 yerlik ən müasir infrastruktura malik tələbə yataqxana kompleksinin inşasının başa çatdırıldığını deyən Ceyhun Bayramov bildirib ki, paytaxtda və regionlarda yeni yataqxana komplekslərinin inşası, Sumqayıt və Gəncə şəhərlərində mövcud yataqxana binalarının əsaslı təmiri və yenidən qurulması tələbələrin təhsil imkanlarının əhəmiyyətli şəkildə genişləndirilməsinə imkan verəcək.

Təhsil naziri "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində 3558 gəncin dünyanın ən nüfuzlu universitetlərində təhsil aldığını deyib və bildirib ki, hazırda Azərbaycanın ali məktəblərində 76 ölkədən 6 mindən çox əcnəbi tələbə təhsil alır. Ceyhun Bayramov ölkə Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "2019-2023-cü illər üçün ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın ali təhsilin keyfiyyətinin yüksəldilməsində, ikili diplom proqramlarının genişləndirilməsində və xaricdə doktorant hazırlığında mühüm rol oynayacağına əminliyini ifadə edib.




Qurultayda çıxış edən Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının sədri, Milli Məclisin deputatı Şahin İsmayılov tələbə-gənclərlə bağlı həyata keçirilən layihələr, görülən işlər barədə məlumat verib. O bildirib ki, ulu öndər Heydər Əliyev hər zaman gənclərə xüsusi diqqət və qayğı ilə yanaşırdı. Dahi rəhbər çıxışlarında gəncliyin ölkə və xalq üçün hər şeydən qiymətli olduğunu qeyd edirdi. Bu gün dövlətimizin başçısı İlham Əliyev gənclər siyasətini uğurla davam etdirir.

Daha sonra Azərbaycan tələbələri haqqında hazırlanmış film nümayiş olunub. Qurultay tələbələrin çıxışları ilə davam edib. Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin doktorantı Elnur Məmmədli, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının tələbəsi Lalə Novruzova, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində Böyük Britaniyanın Liverpul Universitetində təhsil almış Ümid Mehdiyev, Bakı Dövlət Universitetinin tələbəsi, sərbəst güləş üzrə üçqat dünya çempionu Hacı Əliyev, Azərbaycan Dövlət Pedaqoji Kollecinin tələbəsi Əfsanə Abdullayeva, Naxçıvan Dövlət Universitetinin tələbəsi Kərim Nəcəfov, Azərbaycan Dillər Universitetinin tələbəsi Ayşən Məmmədova, Azərbaycan Dövlət İqtisad Universitetinin tələbəsi Amin Fərəczadə, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti Akademiyasının tələbəsi Seyidəli Abbasov öz uğur hekayələrini bölüşüblər. Tədbirin sonunda Azərbaycan tələbələrinin II qurultayının qətnaməsi qəbul olunub.

Qurultay tələbələr tərəfindən hazırlanmış konsert proqramı ilə başa çatıb. Qeyd edək ki, hazırda Azərbaycanın ali məktəblərində bakalavr səviyyəsində 157 min 662, magistratura səviyyəsində 13 min 442, orta ixtisas təhsili müəssisələrində 51 min 819 tələbə təhsil alır.




# YAP Nəsimi rayon təşkilatı ilin yekunlarına həsr olunmuş konfrans keçirib



***Dünən Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatı ilin yekunlarına həsr olunmuş konfrans keçirib. Konfransda çıxış edən YAP Nəsimi rayon təşkilatının sədri, millət vəkili Məlahət İbrahimqızı təşkilatın illik fəaliyyəti ilə bağlı məlumat verib: "Təşkilat il ərzində bir sıra tədbirlərlə yanaşı, rayon gənclərinin elmi-praktiki konfransını təşkil edib. Konfransda Nəsimi rayonu ərazisində yerləşən ali məktəblərdə təhsil alan YAP üzvü olan istedadlı gənclərlə birgə bitərəf gənclər də elmi fəaliyyətlərini inkişaf etdirmək üçün öz tezisləri və araşdırmaları ilə iştirak ediblər".***

M.İbrahimqızı onu da qeyd edib ki, Azərbaycanda ölkə gənclərinin inkişafı üçün geniş imkanlar yaradılıb. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan və bu gün də ölkə Prezidenti İlham Əliyev tərəfindən ardıcıl şəkildə davam etdirilən dövlət-gənclər siyasəti öz uğurlu nəticələrini göstərməkdədir: "Azərbaycan gənclərinin bilik və bacarıqlarının, dünyagörüşlərinin, ictimai-siyasi fəallığının artırılması, onların əsl kadrlar olaraq dövlətimizə və cəmiyyətimizə yararlı şəxsiyyətlər olaraq yetişmələri üçün mühüm işlər görülür, tədbirlər həyata keçirilir. Azərbaycan Prezidentinin diqqət və qayğısını gənclər daim öz üzərlərində hiss edirlər. Məhz bunun nəticəsidir ki, bu gün minlərlə gəncimiz dünyanın müxtəlif nüfuzlu ali məktəblərində təhsil alırlar".

Tədbirdə Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri Seymur Orucov çıxış edərək, ölkədə həyata keçirilən təhsil və gənclər siyasətindən danışıb. Qeyd edib ki, bu gün gənclər Azərbaycanın siyasi və iqtisadi həyatında fəal rol oynayırlar. S.Orucov bildirilib ki, partiya gəncləri hər bir sahədə olduğu kimi, elm, təhsil sahəsində də fəallıq nümayiş etdirirlər.

Tədbirdə YAP Nəsimi rayon təşkilatı gənclər birliyinin sədr əvəzi Söhrab Həşimov hesabat məruzəsi ilə çıxış edib. O bildirib ki, Azərbaycanın dövlət siyasətinin əsas istiqamətlərindən biri də gənclər siyasətidir. Ulu Öndər Heydər Əliyevin siyasi məktəbinin yetirməsi olan Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizin qüdrətli dövlətə çevrilməsi naminə gənclərə böyük inam bəsləyir, ölkəmizdə onlara yüksək şərait yaradılması istiqamətində dövlət proqramları qəbul edilir. Daha sonra YAP Nəsimi rayon təşkilatı gənclər birliyinin 2018-ci ildə gördüyü işlər barədə videoçarx nümayiş olunub.

Tədbirin sonunda bir qrup fəal gənc mükafatlandırılıb.

***NƏZAKƏT***

# Milli Kitabxanada Mir Cəlal Paşayevin "Ədəbi tənqid" və "Publisistika" kitablarının təqdimatı olub



***Dekabrın 21-də Mirzə Fətəli Axundzadə adına Milli Kitabxanasında Mədəniyyət Nazirliyi və Azərbaycan Milli Kitabxanası tərəfindən nəşr olunmuş görkəmli yazıçı və böyük ədəbiyyatşünas Mir Cəlal Paşayevin "Ədəbi tənqid (1931-1974)" və "Publisistika (1926-1977)" kitablarının təqdimatı keçirilib.***




AZƏRTAC xəbər verir ki, tədbiri mədəniyyət naziri Əbülfəs Qarayev açaraq bu il ərzində Mir Cəlal Paşayevin yaradıcılığı ilə bağlı bir neçə silsilə tədbirin keçirildiyini bildirib. Qeyd edib ki, ədibin irsi nəinki Azərbaycanda, həmçinin dünyada müəyyən elmi araşdırmaların, tədqiqatların aparılmasına səbəb olub.

Təqdimat mərasimində Xalq yazıçısı Elçin Əfəndiyev çıxış edərək Mir Cəlal Paşayevin zəngin yaradıcılığından, elmi və pedaqoji fəaliyyətindən və nəcib insani keyfiyyətlərindən söhbət açıb. Bildirib ki, böyük ədib və alim, görkəmli pedaqoq Mir Cəlal Paşayev müdrik insan, nəcib şəxsiyyət idi. Yazıçının müxtəlif janrlarda qələmə aldığı əsərləri həm mövzu zənginliyi, həm də dil və üslub xüsusiyyətləri ilə diqqəti cəlb edir, böyük maraq doğurur. "Mir Cəlal müəllim xoşbəxt yazıçı idi, ona görə ki, sovet sisteminə deyil, ədəbiyyata xidmət edirdi. Bugünkü oxucuların - müstəqil Azərbaycan vətəndaşlarının psixologiyası və tələbləri fərqli olsa da, Mir Cəlalın əsərləri indi də sevilə-sevilə oxunur. O, həm də xoşbəxt ədəbiyyatşünas alim idi. Ədəbiyyatşünaslığın sovet ideologiyasının tərkib hissəsi olmasına baxmayaraq, Mir Cəlal yenə də sistemə deyil, Azərbaycan ədəbiyyatı tarixinə xidmət edirdi. O, həm də xoşbəxt pedaqoq idi. Çünki pedaqoji fəaliyyətini komsomol və partiya ideologiyasına deyil, Azərbaycan xalqı üçün gərəkli oğullar yetişdirməyə həsr etmişdi".

Tədbirdə çap olunan kitabların elmi məsləhətçisi, akademik Nizami Cəfərov, Milli Kitabxananın direktoru, professor Kərim Tahirov, Xalq şairi Nəriman Həsənzadə, professorlar Asif Rüstəmli, Şirindil Alışanlı və başqaları çıxış edərək kitabın elmi məziyyətlərindən, görkəmli yazıçının alim və müəllim kimi şəxsi keyfiyyətlərindən, yaradıcılığının özünəməxsusluğundan danışıb, onunla bağlı xatirələrini bölüşüblər.

Bildirilib ki, kitablarda Mir Cəlal Paşayevin indiyədək ayrıca kitab şəklində çap olunmayan ədəbi-tənqidi və publisistik məqalələri külli halında toplanaraq oxuculara və tədqiqatçılara təqdim olunur. Sonda alimin ailəsi adından oğlu, "ADA" Universitetinin rektoru, professor Hafiz Paşayev çıxış edərək tədbirin təşkilində zəhməti olan hər kəsə təşəkkürünü bildirib.

# Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasında uğurlu rəhbər təyinatı

*Tural Gəncəliyevin verəcəyi töhfələri mühümlüyü ilə seçiləcəkdir*

***Məlum olduğu kimi, bu günlərdə Dağlıq Qarabağ bölgəsinin Azərbaycanlı İcmasının rəhbər strukturunda dəyişiklik olub. İcmaya yeni rəhbər olaraq, Tural Gəncəliyev təyin olunub və bu təyinat, bütövlükdə, qarabağlılar tərəfindən böyük rəğbətlə qarşılanıb. Daha dəqiq desək, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin Azərbaycanlı icmasının, 20 dekabr tarixində keçirilmiş qurultayının qərarı ilə icmanın yeni sədri seçilən T.Gəncəliyevin ictimai əsaslarla fəaliyyət göstərərək, icmanın fəaliyyətinə öz töhfəsini verəcəyini bu icmaya üzv olan hər bir qarabağlı inanır və bu fəaliyyəti dəstəkləyir.***




Lakin T.Gəncəliyevin icmaya rəhbər olaraq təyin edilməsinin digər mühüm amilləri də vardır ki, bütün bunlar onun Qarabağımızın tarixi, ənənələri və s. özəllikləri ilə bağlıdır. İlk öncə, qeyd edə bilərik ki, Tural Babaşah oğlu Gəncəliyev, 6 mart 1980-ci ildə Azərbaycanımızın qədim şəhəri, Qarabağımızın gözü hesab edilən Şuşa şəhərində anadan olub. Uşaqlıq illərini Şuşanın ən qədim və məhşur məhəllələrindən biri sayılan "Çölqala Məhəlləsi"ndə yerləşən Xan qızı Xurşudbanu Natəvan, Azərbaycanın dahi bəstəkarı Üzeyir Hacıbəyov və tanınmış muğam ustası Xan Şuşinskinin



ev muzeyləri ilə qonşuluqda keçirən T.Gəncəliyev, artıq uşaqlıq dövrlərindən milli xüsusiyyətlərin formalaşmasında bu amillərdən bəhrəsini alıb. Məsələn, onun sonradan musiqi təhsili alması, Azərbaycanın və Qarabağın musiqi sənətinin dərinliklərini öyrənməsi onun tarixi Şuşa məhəlləsində böyüməsinin bariz göstəricisidir. O, daha sonra Şuşanın Vaqif Cəfərov küçəsi-28 ünvanında yaşayanda da, Qədim Qarabağ irsinin öyrənilməsində, dərk edilməsində marağını göstərib.

İbtidai təhsilini 4 saylı orta məktəbdə alan T.Gəncəliyev, eyni zamanda, 1987-ci ildə Şuşa şəhəri Niyazi adına Musiqi Məktəbində tar sinfinə daxil olub. Ümumiyyətlə, bu gün Qarabağın canlı ensiklopediyaları sayılan ağsaqqalları da bu soyadın ziyalı və müəllim zümrəsinə aid olduğunu bildirirlər. Belə ki, T.Gəncəliyevin atası Babaşah Gəncəliyev Şuşa şəhər Uşaq Şahmat Məktəbinin direktoru olub və bu maraq da yeniyetmə Turalda öyrənmək, müxtəlif təhlillər aparmaq həvəsini yaradıb. Məhz həmin zamanlarda, o, atasının direktor çalışdığı Şahmat Məktəbində bu qədim oyunun sirlərinə yiyələnib, şahmat təlimi alıb. Əbəs deyil ki, o, Dağlıq Qarabağda keçirilən musiqi müsabiqələri və şahmat yarışlarında uşaq vaxtlarından iştirak edib, müxtəlif musiqi festivalları və turnirlərin qalibi olub.

Lakin təəssüf ki, mənfur erməni işğalçılarının və separatçılarının çirkin məqsədləri növbəti dəfə Qarabağımızın üzərini alıb, dədə-baba torpaqlarımıza düşmən təcavüzü həyata keçirilib. Həmin ərəfələrdə, Şuşanın işğalı səbəbindən 1992-ci ilin may ayından etibarən onun ailəsi Bakı şəhərinə köçüb və məcburi köçkün olaraq, orta məktəb və musiqi təhsilini Bakıda davam etdirib.

Lakin uğurlar qazanmaq həvəsi heç zaman onu tərk etməyib. 1995-ci ildə Bakıda musiqi məktəbləri arasında keçirilmiş Hacı Xanməmmədovun xatirəsinə həsr olunmuş musiqi müsabiqəsinin qalibi olub və Dövlət Filarmoniyası və Rəşid Behbudov adına Mahnı Teatrında musiqi proqramları ilə çıxış edib.

T.Gəncəliyev ali təhsilini hüquq ixtisası üzrə alıb və 2000-ci ildə Bakı Dövlət Universitetinin hüquq fakültəsinin hüquqşünaslıq ixtisası üzrə bakalavr pilləsini, 2002-ci ildə isə eyni fakültənin magistraturasını fərqlənmə diplomu ilə bitirib.

Onun iş karyerası da olduqca mühüm istiqamətlərdə müəyyənləşib. Belə ki, T.Gəncəliyev, 5 avqust 2004-cü ildə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Təhlükəsizlik Problemləri İdarəsinin referenti vəzifəsinə, 2006-cı ilin 16 yanvar tarixində həmin idarənin attaşesi, 2008-ci ilin 1 may tarixində üçüncü katibi vəzifəsinə təyin edilib.

Onun diplomatik sahədə çalışması, nəticə olaraq, siyasi bilgilərinin artmasına, dövlətin mövqeyinin qorunması istiqamətindəki fəaliyyətinə mühüm təkanlar verib. İşində nöqsansız çalışan T.Gəncəliyev 2008-ci ilin dekabr ayında Azərbaycan Respublikasının Kanadadakı Səfirliyinə ezam edilib. Səfirlikdə uzunmüddətli ezamiyyət müddəti bitdikdən sonra, 25 yanvar 2013-cü il tarixində Xarici İşlər Nazirliyinin Amerika İdarəsinin Şimali və Mərkəzi Amerika şöbəsinə təyin edilib. 8 aprel 2014-cü il tarixində isə, o, birinci katib vəzifəsini alıb.

2014-cü ilin 1 oktyabr tarixindən etibarən, Azərbaycan Respublikasının Çex Respublikasındakı Səfirliyinə birinci katib vəzifəsinə təyin edilib. 2017-ci ilin 16 noyabr tarixində ATƏT-in İnsan Ölçüsü çərçivəsində "İnsan hüquqları və məcburi köçkünlər haqqında" Vyana şəhərində keçirilən konfransda Dağlıq Qarabağın Azərbaycanlı İcmasının təmsilçisi qismində çıxış etmək üçün Avstriyaya ezam edilən T.Gəncəliyev Azərbaycanın haqq səsini Avropaya çatdırıb və bir qarabağlı olaraq, dədə-baba yurdundan qaçqın düşən yüz minlərlə insanın adından erməni işğalı barədə danışıb, Xocalı, Qaradağlı və s. faciələr barədə avropalıları məlumatlandırıb.

2018-ci ilin 1 oktyabr tarixindən etibarən, o, Çexiyada uzunmüddətli ezamiyyətini başa vuraraq, Xarici İşlər Nazirliyinə geri çağırılıb. Eyni zamanda, Xarici İşlər Nazirliyində işlədiyi müddət ərzində, bir sıra diplomatik kurslar və seminarlarda iştirak etmək məqsədilə xarici dövlətlərə - Almaniyaya, Bolqarıstana, Misirə və s. ölkələrə ezam edilib. Onun diplomatik fəaliyyəti xarici dilləri də dərindən öyrənməsinə geniş şərait yaradıb. T.Gəncəliyev ingilis, fransız və rus dillərində sərbəst şəkildə danışır və yazır.



Beləliklə, Qarabağ icmasının rəhbəri olaraq, onun qarşıda görəcəyi hər bir iş erməni təcavüzkarları tərəfindən işğal edilmiş ərazilərimizin qaytarılması istiqamətində dövlətimizin apardığı qətiyyətli siyasətinə dəstək ola bilər. Çünki həm bir ziyalı, həm də bir diplomat, kimi T.Gəncəliyevin bu kimi işlərdə verəcəyi töhfələri mühümlüyü ilə seçiləcəkdir. Söz yox ki, məhz bu amillər də qarabağlıların diqqətindən yayınmayıb və onun təyinatı, birmənalı olaraq, dəstəklənib, ona uğurlar və yeni-yeni nailiyyətlər arzulanıb.

**Rövşən NURƏDDİNOĞLU**

# Məhkəmə-Hüquq Şurasının iclası keçirilib



***Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib. Şuradan AZƏRTAC-a bildiriblər ki, Fikrət Məmmədovun sədrliyi ilə keçirilən iclasda son illər ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə məqsədyönlü tədbirlərin görüldüyü vurğulanıb. Bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, hakimlərin şəffaf seçiminin keçirilməsi, insanların məhkəmələrə müraciət imkanlarının asanlaşması, "Elektron məhkəmə" informasiya sisteminin yaradılmasının nüfuzlu beynəlxalq təsisatlar tərəfindən təqdir olunduğu bildirilib.***

Məhkəmə infrastrukturunun müasirləşdirilməsində dövlətimizin başçısının yüksək dəstəyi qeyd olunub. Yeni inşa edilən və ən müasir texnologiyalarla təmin olunmuş müasir məhkəmə bina və komplekslərinin açılışında Azərbaycan Prezidentinin şəxsən iştirakının məhkəmə hakimiyyətinin möhkəmləndirilməsinə dövlət qayğısının bariz nümunəsi olduğu vurğulanıb.

İclasda Azərbaycan ədliyyəsinin 100 illik yubileyi münasibətilə Prezident İlham Əliyevin sərəncamları ilə hakimlərin və Məhkəmə-Hüquq Şurası üzvlərinin bir qrupunun "Əməkdar hüquqşünas" fəxri adına layiq bilinməsi, habelə orden və "Tərəqqi" medalı ilə təltif edilməsi qeyd olunub.

Tədbirdə həmin təltiflər təntənəli surətdə təqdim edilib. Dövlət təltiflərinə layiq bilinmiş şəxslər çıxışlarında onların fəaliyyətinə verilən yüksək qiymətə görə dövlətimizin başçısı İlham Əliyevə sonsuz ehtiramlarını ifadə edib, bunun böyük məsuliyyət hissi yaratdığını, məhkəmə hakimiyyətinin inkişafı naminə daha fədakarlıqla çalışmağa ruhlandırdığını bildiriblər.

Eyni zamanda, Məhkəmə-Hüquq Şurasının iclasında səlahiyyət müddəti bitmiş 56 hakimin və 7 məhkəmə sədrinin fəaliyyətinin qiymətləndirilməsi nəticələri prinsipial müzakirə edilib. Dörd məhkəmə sədrinin işində nöqsan və çatışmazlıqlara görə aşağı işə keçirilməsi, vətəndaşlarda haqlı narazılıq doğuran pozuntulara yol verməsi nəzərə alınaraq 6 hakimin səlahiyyətlərinə xitam verilməsi barədə qərar qəbul olunub. Bundan başqa, 57 nəfərin peşəkarlıq səviyyəsinə uyğun müxtəlif hakim vəzifələrinə təyinatı məqsədəuyğun bilinib.

Qeyd olunub ki, ölkəmizdə hakimliyə namizədlərin Avropada nümunə kimi göstərilən obyektiv seçimi nəticəsində 800-dən çox namizəd sırasından 108 hüquqşünas çoxmərhələli imtahanları, o cümlədən bir il müddətində davam etmiş təlimləri və məhkəmələrdə, habelə Türkiyədə və Avropa Məhkəməsində stajkeçməni uğurla başa vurub.

İclasda hakim korpusunun həmin gənc nəsil hakimliyə namizədlər hesabına möhkəmləndirilməsinin əhəmiyyəti vurğulanıb. Həmçinin apellyasiya instansiyası məhkəmələrində sədr müavini və kollegiya sədri vəzifələrinin komplektləşdirilməsi, hakim kadrlarından daha səmərəli istifadə edilməsi məqsədilə rotasiya ehtiyacı, hakimlərin iş yerinin dəyişdirilməsi barədə müraciətləri nəzərdən keçirilib, ətraflı müzakirələr aparılaraq dövlətimizin başçısına müvafiq təkliflər verilib.

Bildirilib ki, bu sahədə görülən tədbirlər nəticəsində məhkəmə sistemində mövcud olan bütün vakansiyaların tam əksəriyyəti komplektləşdiriləcək. Bu da hakimlərin iş yükünün xeyli azalmasına, işlərə daha keyfiyyətlə baxılmasına və süründürməçilik hallarının aradan qaldırılmasına xidmət edəcək.

# Azərbaycanı daha təhlükəsiz, sabit və firavan gələcəyə aparan GÜCLÜ LİDER!

***Bu gün ölkəmizin qarşısında duran əsas vəzifələr uğurla icra edilir, təhlükəsizlik yüksək səviyyədə qorunur, ictimai-siyasi sabitlik möhkəmlənir. Demokratik cəmiyyət quruculuğu, dünya birliyinə inteqrasiya sahəsində ciddi nailiyyətlərə imza atan Azərbaycan dünya ölkələri ilə münasibətlərini suverenliyə və ərazi bütövlüyünə hörmət, sərhədlərin toxunulmazlığı və daxili işlərə qarışmamaq kimi beynəlxalq norma və prinsiplər əsasında qurmaqla, beynəlxalq birliyin etimadını qazanıb. Azərbaycanın dünyadakı nüfuzu, bir çox beynəlxalq layihələrin reallaşması bu münasibətlərin daha da dərinləşməsinə səbəb olub.***



*SEVİNC FƏTƏLİYEVA,*
*Milli Məclisin deputatı*

Son 15 il ərzində Azərbaycan Prezidenti İlham Əliyev mötəbər beynəlxalq təşkilatlardan olan Avropa Şurasının Parlament Assambleyasının həmsədri olmuş, ölkəmiz isə aparılmış praqmatik xarici siyasət nəticəsində, dünyanın yeganə qlobal təşkilatı olan Birləşmiş Millətlər Təşkilatının ən nüfuzlu orqanı olan Təhlükəsizlik Şurasına 155 ölkənin dəstəyini qazanaraq, qeyri-daimi üzv seçilmişdir. Bu da, ölkəmizin milli maraqlarını beynəlxalq arenada layiqincə təmsil edilməsinə tarixi şərait yaratmışdır.

Müstəqillik tarixinin 27 ili ərzində Azərbaycan özünün xarici-siyasi prinsiplərinə əsaslanaraq, qonşu dövlətlərlə dostluq münasibətləri prinsipini qoruyur və onlara qarşı bitərəf siyasətini saxlayır. Məlumdur ki, Qoşulmamaq Hərəkatının nazirlər konfransında ölkəmizin rəhbəri İlham Əliyev çıxış edərək qeyd edib ki, ölkələr, iştirakçı təşkilatlar, eyni - oxşar çağırışlarla və problemlərlə üzləşərlərsə, o vaxt onların gücü birgə məsuliyyət daşımalarından asılı olacaq. "Biz bu hərəkatın üzvü olaraq öz ölkəmizdə sərbəst, müstəqil həyat sürmək istəyirik, kənardan bizə yol göstərənlərlə yaşamaq istəmirik", - deyən dövlət başçısı qeyd edib ki, artıq yarım əsrdir ki, Qoşulmamaq Hərəkatı humanizm prinsiplərini irəli sürür. Bu prinsiplər Azərbaycanın ideologiyasının əsasında dayanan multikulturizm və tolerantlıqla harmonik şəkildə uyğun gəlir və bu ideologiyanın təməlini də Ümummilli Lider Heydər Əliyev qoymuşdur. Qeyd edilməlidir ki, 2019-2022-ci illərdə Azərbaycan 120 ölkəni öz ətrafında birləşdirən bu təşkilata sədrlik edəcəkdir. Növbəti il bir sıra ölkələrin dövlət və hökumət başçılarının iştirakı ilə Bakı şəhərində Qoşulmama Hərəkatının Zirvə Görüşü keçiriləcəkdir. Təbii ki, baş tutacaq bu tarixi hadisə Azərbaycanın növbəti diplomatik uğuru kimi qiymətləndirilməlidir.

## BEYNƏLXALQ HƏRBİ-SİYASİ ƏMƏKDAŞLIQ, HƏRBİ SƏNAYE VƏ HƏRBİ-TƏHLÜKƏSİZLİK İSTİQAMƏTLƏRİNDƏ APARILMIŞ UĞURLU SİYASƏT

Çox təəssüf ki, erməni rəhbərliyinin destruktiv siyasəti Azərbaycanın imicini beynəlxalq arenada korlamaq siyasətini yürüdür. Bunun da qarşısını almaq üçün Azərbaycan tərəfində gərginlik yaradır. Rəsmi İrəvanın Azərbaycan haqqında yalançı və əsassız məlumatları getdikcə artır. Bunların hamısı, ancaq bir məqsəd daşıyır: öz siyasətlərinə bəraət qazandırmaq, Ermənistanı saldıqları geosiyasi dalandan çıxarmaq. Lakin Prezident İlham Əliyevin diplomatik səyləri nəticəsində, işğalçı Ermənistan dövləti küncə sıxışdırılmış halda qalmaqda davam edir. İndi bütün beynəlxalq təşkilatların sənədlərində Dağlıq Qarabağ Azərbaycanın ərazisi kimi göstərilir. Dünyanın nüfuzlu ekspertlərinin hesab etdikləri kimi, Ermənistanın mövqeyi xeyli zəifləmişdir. Hətta işğalçı dövlətə bir vaxtlar havadarlıq etmiş ölkələrin regional məsələlərdə, məhz Azərbaycan Prezidenti ilə məsləhətləşməyə üstünlük verməsi və paralel olaraq, Ermənistanı perspektivsiz ölkə hesab etmələri, İrəvanın oyundan kənarda qalmasına və əsl təşvişə düşməsinə səbəb olmuşdur. Ermənistan tərəfindən İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, ATƏT, Avropa Şurasının Parlament Assambleyası və Avropa Parlamenti kimi digər beynəlxalq təşkilatların Azərbaycanın ərazi bütövlüyünü tanıyan qətnamə və qərarlarına məhəl qoyulmasa da, aprel döyüşlərində verdikləri ağır itki Ermənistana böyük dərs olmuşdur. İrəvanın belə qorxu içində olması, əslində, çox başa düşüləndir. Çünki Azərbaycan Ordusu artıq peşəkar və nizamlı ordudur. O, döyüş meydanında sözünü deyə bilən və Ali Baş Komandanın bütün tapşırıqlarını layiqincə yerinə yetirə bilən ordudur. Heç təsadüfi deyil ki, bir çox beynəlxalq ekspertlərin və beyin mərkəzlərinin hesabatlarında müasir hərbi texnika, yüksək hərbi peşəkarlıq, hərbi çeviklik və döyüş ruhu amillərinə görə Azərbaycanın regionun ən güclü ordusuna, dünya miqyasında isə qabaqcıl ordularından birinə malik olduğu bildirilir. Bu da, məhz ölkə Prezidentinin xalq-hakimiyyət birliyi prinsipindən irəli gələrək, Azərbaycan Ordusunun xarici siyasət məqsədlərinin yerinə yetirilməsində vacib vasitələrdən biri kimi faydalanmaq üçün ölkəmizdə son 15 il ərzində beynəlxalq hərbi-siyasi əməkdaşlıq, hərbi sənaye və hərbi-təhlükəsizlik istiqamətlərində aparılmış uğurlu siyasət və əməkdaşlığın nəticəsidir.

Xarici siyasətimizin digər prioritet istiqaməti olan beynəlxalq iqtisadi münasibətlərdə Prezident İlham Əliyev tərəfindən davamlı müstəqil və stabil siyasət yürüdülməsi nəticəsində, xüsusilə, enerji resurslarının dünya bazarına çıxarılmasına, həm enerji resurslarının nəqli üzrə geostrateji əhəmiyyətə malik dəhliz, həm də Avropa ölkələrinin enerji təminatında etibarlı tərəfdaş kimi Azərbaycanın beynəlxalq aləmdə qəbul edilməsinə şərait yaranmışdır. Bu gün bir çox Avropa rəsmiləri Avropa enerji təhlükəsizliyinin təmin edilməsi və enerji resurslarının şaxələndirilməsində Azərbaycanı vacib ölkə hesab edirlər.

## PREZİDENT İLHAM ƏLİYEVİN SİYASİ İRADƏSİ VƏ BÖYÜK ƏMƏYİ SAYƏSİNDƏ AZƏRBAYCAN BEYNƏLXALQ SƏVİYYƏLİ TRANZİT VƏ LOGİSTİKA MƏRKƏZİNƏ ÇEVRİLİB

Beynəlxalq körpü rolu oynayan ölkəmiz üçün mühüm prioritetlərdən biri nəqliyyatdır. Avropa ilə Asiya arasında yerləşən Azərbaycan Avrasiyada aparıcı nəqliyyat qovşaqlarından birinə çevrilmək istiqamətində öz coğrafi mövqeyindən müdrikcəsinə istifadə edir. Bakı-Tiflis-Qars dəmiryolu xətti Asiyanı və Avropanı birləşdirəcək yeganə qısa və alternativ nəqliyyat marşrutu olmaqla yanaşı, Prezidentimizin də dediyi kimi, "iqtisadi və siyasi əhəmiyyətinə görə Afrika ilə Asiyanı birləşdirən Süveyş kanalı kimi titanik layihələrlə müqayisə oluna bilər". Avropa İttifaqı, ABŞ və Mərkəzi Asiya dövlətləri tərəfindən dəstəklənən bu layihənin reallığa çevrilməsi, məhz Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi və böyük əməyi sayəsində mümkün olmuşdur. Bu əməyin nəticəsidir ki, Azərbaycan beynəlxalq səviyyəli tranzit və logistika mərkəzinə çevrilmişdir. Ümumiyyətlə, ölkənin nəqliyyat- strateji əhəmiyyətindən danışarkən, onun əsasını təşkil edən, "Azərbaycan 2020 - gələcəyə baxış" yolunu tutmasından və ölkənin nəqliyyat sektorunda tutduğu inkişaf yolundan danışmamaq olmaz. Qeyd olunanlardan məlum olur ki, Azərbaycan nəqliyyat sistemi tutduğu roluna görə o, regionda ticarət mərkəzinə çevrilir.

## DÖVLƏTİMİZ DÜNYA MİQYASINDA DİNLƏRARASI VƏ MİLLƏTLƏRARASI MÜNASİBƏTLƏRİN TƏNZİMLƏNMƏSİNDƏ NÜMUNƏVİ ÖLKƏDİR

Təqdirəlayiqdir ki, ölkəmizin regional və beynəlxalq əməkdaşlıq məsələlərində bir çox hallarda təşəbbüskar kimi çıxış etməsi Prezident İlham Əliyevin reallaşdırdığı vahid xarici siyasət kursunun tərkib hissələridir. Yəni hər bir təşəbbüs xarici siyasətimizin prioritet vəzifəsinə xidmət etməsi məqsədilə irəli sürülür. Dünya miqyasında dinlərarası və millətlərarası münasibətlərin tənzimlənməsində nümunəvi ölkəyə çevrilmiş Azərbaycan multikulturalizmin inkişaf etdirilməsi, bu istiqamətdə əməkdaşlığın gücləndirilməsinə yönəlmiş çox sayda mühüm beynəlxalq tədbirlərə ev sahibliyi etmişdir. Ölkəmizdə "Multikulturalizm İli" və "İslam Həmrəyliyi İli" elan edilməsini, BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunu, Dünya Dini Liderlər Forumunu, Mədəniyyətlərarası Dialoq və Bakı Beynəlxalq Humanitar forumlarını və digər mühüm tədbirləri bunlara misal olaraq göstərmək olar. İki il ərzində Bakıda həm Avropa, həm İslam Oyunlarının keçirilməsi Azərbaycanın millətlərarası, dinlərarası multikulturalizmə verdiyi töhfənin növbəti təzahürü olmuşdur. Ölkəmizdə baş tutmuş mühüm beynəlxalq hadisələrdən biri də İslam Əməkdaşlıq Təşkilatının və Avropa Şurasının üzvü olan Azərbaycan tərəfindən 2008-ci ildə BMT-nin dəstəklədiyi "Bakı Prosesi"nə start verilməsidir. Dünyada, əsasən, müsəlman ölkələrində silahlı münaqişələrin baş verdiyini və həmin ölkələrdən digər dövlətlərə axın edildiyini, hətta qabaqcıl ölkələrdə müxtəlif dinə və əqidəyə malik insanlara qarşı tolerantlığın azaldığını və nəticədə, sosial gərginliyin baş verdiyini nəzərə alsaq, əsas məqsədin müsəlman aləmi ilə Avropa arasında dialoqun, tərəfdaşlığın və əməkdaşlığın gücləndirilməsi olduğu "Bakı Prosesi"nin əhəmiyyətinin miqyasını anlamaq mümkündür. Məhz buna görədir ki, bu il 10 illiyini qeyd etdiyimiz "Bakı Prosesi", bir çox aktual məsələlərin müzakirəsi və əməkdaşlıqların qurulması baxımından, beynəlxalq səviyyədə mötəbər platforma olaraq qəbul edilməkdədir. Əgər Davosda daha çox iqtisadi, Münxendə təhlükəsizlik məsələləri müzakirə olunursa, Qlobal Bakı Forumunda və digər mühüm tədbirlərdə daha çox siyasi və eyni zamanda, bütün digər məsələlər müzakirə edilir.

Son 15 ildə vacib məqamlardan biri də, Azərbaycan Respublikasının Prezidenti tərəfindən neft kapitalının insan kapitalına çevrilməsi, qeyri-neft sektorunun genişləndirilməsi və davamlı inkişafın təmin edilməsi dövlət siyasətinin tərkib hissəsi kimi müəyyən edilməsidir. Torpaqlarının işğala məruz qalmasına və ərazisində 1 milyondan çox qaçqın və köçkünün yaşaması şəraitində ölkədə savadlılıq səviyyəsinin 100 faizə yaxın olması və bütün əhalinin ölkənin davamlı inkişafından faydalanması, inklüziv inkişafın təmin edilməsi Azərbaycan Prezidenti tərəfindən aparılan inkişaf strategiyasının əsasıdır. Xarici maliyyə dəstəyi olmadan Azərbaycanda erməni işğalından əziyyət çəkən qaçqın və məcburi köçkünlər üçün yeni qəsəbə və şəhərcik salınmışdır. 2004-cü ildən başlayaraq, 3000-dən artıq məktəb, 600-dən çox xəstəxana və tibb mərkəzləri tikilmiş, yaxud təmir edilmişdir. Hər il 5 milyondan artıq insan dövlət büdcəsindən maliyyələşən tibbi yoxlamadan faydalanır.

Bu gün ölkəmizdə innovativ dövlət-idarəetmə texnologiyalarından istifadə edilərək, əhalinin ictimai xidmətlərindən asanlıqla və səmərəli şəkildə faydalanması təmin edilməkdədir. Dövlət xidmətlərinin əhəmiyyətli dərəcədə sadələşdirilməsinə, təkmilləşməyə verdiyi töhfəsinə və yaradıcı olmağına görə, ictimai münasibətlərin və xidmətlərin müasir modeli olan Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi - "ASAN xidmət" 2015-ci ildə Birləşmiş Millətlər Təşkilatının Dövlət Xidməti Mükafatına layiq görülmüşdür. Artıq bir sıra ölkələr ərazilərində analoji qurumun yaradılması məqsədilə "ASAN xidmət"in fəaliyyətinə böyük maraq göstərdiklərini ifadə etmişlər.

## AZƏRBAYCAN DONOR DÖVLƏTİNƏ ÇEVRİLİB VƏ BU, ÖLKƏMİZ ÜÇÜN YENİ VƏ ŞƏRƏFLİ BİR DÖVRDÜR

Bildiyimiz kimi, Azərbaycanda davamlı inkişaf iqtisadi tərəqqinin əldə edilməsi və sosial problemlərin həlli nəticəsində mümkün olmuşdur. Qeyd etmək istərdik ki, indiyədək Azərbaycana 250 milyard dollara yaxın xarici və yerli sərmayə qoyulmuşdur. Ölkəmizdə sərmayə iqlimi yaxşılaşdırılmış və xarici sərmayə qanun çərçivəsində yüksək səviyyədə təmin edilmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin hakimiyyətdə olduğu 15 il ərzində iqtisadi inkişaf baxımından ölkəmiz qədər sürətlə inkişaf edən ikinci bir ölkə olmamışdır. İnkişafda olan ölkələrin arasında Azərbaycan inkişafına görə dünya miqyasında üçüncü yerdədir. Son 15 ildə iqtisadiyyat, yəni, ümumi daxili məhsul 3,2 dəfə artmışdır, bu da dünya miqyasında rekord hesab edilə bilər. Hazırda dünyada maliyyə-iqtisadi tənəzzülün davam etməsinə baxmayaraq, Azərbaycan nadir ölkələrdəndir ki, qlobal böhranın fəsadlarının ölkəmizdəki təsirini, nəinki minimum dərəcəyə endirməyi bacarmışdır, hətta iqtisadi həyatın bir çox aspektlərində nümunəvi irəliləyişlərin əldə olunmasını təmin edə bilmişdir. Aparılmış sosial-iqtisadi siyasət nəticəsində, bir vaxtlar xarici yardımdan asılı olan Azərbaycan artıq donor dövlətinə çevrilib və bu, ölkəmiz üçün yeni və şərəfli bir dövrdür. Beləliklə, təsdiq etmək olar ki, Prezident İlham Əliyevin rəhbərliyi sayəsində Azərbaycan Respublikası öz xarici siyasətində balanslaşdırılmış xarici siyasət həyata keçirir və ölkənin Xəzər hövzəsi və Cənubi Qafqaz regionunda mənafeyini müdafiə etməklə yanaşı, ən önəmli mövqeyə malik olmasına nail olur, eyni zamanda, xarici siyasətə əməl etməklə mövqeyini təsdiqləyir və Azərbaycan xalqının təhlükəsiz və xoşbəxt gələcəyini təmin edir. Hər sahədə qazandığımız uğurların təməlində Prezident İlham Əliyevin qətiyyəti, əzmkarlığı və Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqincə davam etdirilməsi dayanır. Belə Prezidenti olan xalq xoşbətdir və onun uğurlu gələcəyi var.

# İnsanların sağlamlığı dövlətimiz üçün prioritet məsələdir



*Azərbaycan Respublikası Milli Məclisinin deputatı Kamaləddin Qafarovun yap.org.az-a müsahibəsi*

**- Kamaləddin müəllim, bir çox qələbə və xoş hadisələrlə əlamətdar olan 2018-ci il başa çatmaqdadır. Bu ildə Azərbaycanın beynəlxalq və milli səviyyədə əldə olunan uğurlarını necə xarakterizə edərdiniz?**

- Hamıya yaxşı məlumdur ki, Azərbaycanın adı hazırda dünyanın inkişaf etmiş bir sıra dövlətləri ilə yanaşı çəkilir. Ölkəmizin beynəlxalq aləmdə islahatçı ölkə kimi nüfuz qazanmasını bugünkü uğurlarımızın təntənəsi kimi dəyərləndirmək olar.

Ümummilli liderimiz Heydər Əliyevin qlobal ideyalarının layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevin rəhbərliyi altında ölkəmizin iqtisadi potensial gücləniş, infrastruktur və investisiya layihələri müxtəlif sahələri əhatə etmiş, əhalinin müxtəlif təbəqələri arasında fərqlərin minimallaşdırılması təmin edilmişdir. Qeyri-neft sektorunun inkişafı ilə bağlı hədəflərin reallaşması, son illərdə görülən işlər, əldə olunan uğurlu nəticələr Azərbaycanı bütün dünyaya tanıtmışdır. İnkişafın Azərbaycan modelinin mövcudluğu uğurlu siyasətin göstəricisidir. Qeyri-neft sektorunun sürətlə genişlənməsi, Azərbaycanda sənayeləşmə prosesinin davam etməsi, iqtisadi zonaların yaradılması ölkənin inkişafını daha da sürətləndirir.

Dünya iqtisadiyyatının ayrılmaz tərkib hissəsi olan Azərbaycan iqtisadiyyatının inkişaf modeli barədə pozitiv açıqlamalardan, xarici mətbuat səhifələrində yer alan təhlil və araşdırmalardan da aydın olur ki, ölkəmiz iqtisadi böhran dövründə də siyasi, iqtisadi sabitliyini qorumaq iqtidarındadır.

Təcrübə göstərir ki, belə bir sistem yalnız sahibkar təşəbbüsünə və sərbəst rəqabətə əsaslanan bazar münasibətləri şəraitində mümkündür. Bu səbəbdəndir ki, xarici investorların maraq göstərdiyi ölkəmizdə dünya təcrübəsindən istifadəyə diqqət artırılır. İnvestisiya cəlbediciliyinə görə də fərqlənən Azərbaycana istənilən həcmdə xarici maliyyə resursları yönəltmək üçün heç bir problem yoxdur. Ölkə vətəndaşlarının məşğulluq səviyyəsinin yüksəlməsinə göstərilən diqqətin nəticəsidir ki, son 15 ildə 1 milyon 958 mindən artıq iş yeri yaradılmışdır. Sahibkarlığın inkişafı, özəl bölməyə göstərilən dövlət dəstəyi sayəsində işsizliyin 5 faizə düşməsi, yoxsulluğun da eyni həddə saxlanılması aparılan iqtisadi siyasətin uğurudur.

**- Bəs bu davamlı inkişaf Sizin təmsil olunduğunuz səhiyyə sektorunda özünü necə əks etdirir? Axı səhiyyəni özündə ehtiva edən sosial siyasət Azərbaycanın daxili siyasətində prioritet yerlərdən birini tutur...**

- Azərbaycan Prezidenti möhtərəm İlham Əliyevin rəhbərliyi ilə son 15 il ərzində böyük uğurlar qazanılan sahələrdən biri də səhiyyə sahəsidir. Qeyd etdiyiniz kimi, ölkəmizdə səhiyyə sektorunun inkişafı ilə bağlı islahatlar dövlətin həyata keçirdiyi sosial siyasətin başlıca istiqamətlərindən birini təşkil edir. Təbii ki, bu da dövlətimizin vətəndaş amilinə verdiyi dəyərdən irəli gəlir.

Səhiyyə ilə bağlı mühüm dövlət proqramlarının hazırlanması, əhalinin sağlamlığının daha etibarlı şəkildə qorunması, onların ən yüksək səviyyədə tibbi xidmətlərlə təmin olunması bu istiqamətdə həyata keçirilən siyasətin prioritetləridir. Səhiyyə müəssisələrinin təmiri və bərpası, ən müasir avadanlıqlarla təchiz edilməsi, vətəndaşların pulsuz dərman preparatları ilə təmin olunması, müalicəsi, uşaqların bütün növ xidmətlərlə ən yüksək səviyyədə əhatə olunması bu sahədə islahatların əsasını təşkil edir.

2003-cü ildə səhiyyəyə dövlət büdcəsindən ayrılan xərclər 55, 3 milyon manat olduğu halda, 2017-ci ildə bu rəqəm 13,5 dəfə artaraq 746,7 millyon manata çatmışdır. Bu dövr ərzində Bakı şəhərində və ölkənini regionlarında 635 tibb müəssisəsi tikilmiş və yaxud əsaslı təmir olunmuşdur.

Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramları çərçivəsində bir sıra bölgələrdə diaqnostika mərkəzləri tikilib istifadəyə verilmişdir.

Bir əsas məqamı da qeyd edək ki, beynəlxalq təşkilatlar, o cümlədən Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanda həyata keçirilən islahatları yüksək dəyərləndirir. Kompleks tədbirlər qarşıya qoyulan məqsədlərə lazımı səviyyədə nail olmağa əsas yaradır. Qeyd etdiyimiz kimi, hər sahə üzrə konkret Dövlət Proqramlarının qəbulu və icrasına xüsusi diqqətin göstərilməsi bir daha bu reallığı təsdiqləyir ki, ölkənin hərtərəfli inkişafı dövlət siyasətinin əsasını təşkil edir. Azərbaycan təcrübəsinin hər sahədə nümunə olması qarşıya mühüm vəzifə kimi qoyulmuşdur.

İnsanların sağlamlığının keşiyindən dayanmaq, onlara yüksək xidmət göstərmək səhiyyə işçilərinin borcudur. Möhtərəm İlham Əliyevin bu fikirləri insan amilinə dəyəri bir daha təsdiqləyir: "İnsanların sağlamlığı dövlətimiz üçün prioritet məsələdir. Mənim bölgələrə səfərlərim zamanı açılan xəstəxanalar, su xətləri, ekologiya ilə bağlı digər tədbirlər bir məqsədi güdür - Azərbaycanda insan sağlamlığı qorunsun, keyfiyyətli müalicə almaq üçün imkan, şərait olsun."

**- Kamaləddin müəllim, onkoloji xəstəliklərin profilaktikası və müalicəsi, həmçinin icbari tibbi sığorta sahəsində cari ildə hansı yeniliklər olub?**

- Azərbaycan Minilliyin İnkişaf Məqsədləri üzrə bir çox hədəflərə nail olmuş və Birləşmiş Millətlər Təşkilatının 2016-2030-cu illər üçün təsdiqlənmiş Dayanıqlı İnkişaf Məqsədlərinə qoşulmuşdur. Azərbaycanda daha dayanıqlı, əhatəli və şaxələndirilmiş iqtisadiyyatın inkişaf etdirilməsi, sosial sahələrin tarazlı inkişafının təmin olunması üçün səmərəli milli icra mexanizmi yaradılacaqdır.

Azərbaycanda əvvəlki illərlə müqayisədə onkoloji xəstəliklərin müalicəsi üçün yaradılan şərait müasir səviyyəyə çatdırılıb. Azərbaycan Milli Onkologiya Mərkəzi öz təchizatına görə Avropanın bir sıra qabaqcıl klinikalarından irəlidədir. Bu günədək əldə etdiyi böyük elmi potensial və müasir material texniki baza Milli Onkologiya Mərkəzinin (MOM) təkcə onkologiya sahəsində deyil, onunla əlaqəli olan elmlərdə də çoxsahəli elmi tədqiqat problemlərinin öyrənilməsinə təminat verir. Hazırda MOM onkologiya sahəsində elmi metodik- praktik işin və eləcə də əhaliyə göstərilən ixtisaslaşmış onkoloji yardımın koordinasiyası ilə məşğul olan əsas mərkəz funksiyasını daşıyır. Respublikanın bütün bölgələrindən, 8 rayonlararası onkoloji dispanserdən (Naxçıvan, Xankəndi, Sumqayıt, Lənkəran, Şəki, Mingəçevir, Şirvan) və 100-ə yaxın onkoloji kabinetdən mərkəzə respublikada onkoloji xəstəliklərə mübtəla olmuş insanlar haqqında məlumatlar verilir, onların diaqnostikası və müalicəsi barədə informasiyalar toplanır.

İcbari tibbi sığortaya keçilməsi təmin ediləcək və onun əsasında tibbi yardımın keyfiyyətinə, pasiyentlərin hüquqlarının qorunmasına nəzarət mexanizmlərinin təkmilləşdirilməsinə şərait yaradılacaqdır. Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2013-2020-ci illəri əhatə edən Dövlət Proqramı uşaq və yeniyetmələr arasında profilaktik müayinələr və dispanserləşdirmə aparılması işi gücləndirməkdədir.

Azərbaycan Prezidentinin Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında səhiyyə sahəsində qarşıda duran başlıca vəzifələrə xüsusi diqqət ayrılıb. Konsepsiyanın müvafiq bölümündə səhiyyəyə ayrılan vəsaitin ümumi daxili məhsulda payının dinamik şəkildə artırılması, həmin vəsaitin səmərəli və məqsədyönlü istifadəsini təmin edən mexanizmlər yaradılması nəzərdə tutulub. Səhiyyə sisteminin islahatları nəticəsində, əsasən, stasionar yardıma istiqamətləndirilmiş təbabətdən ilkin tibbi-sanitariya yardımının üstünlük təşkil etdiyi təbabətə keçilməsi reallaşdırılacaq, ailə həkimi praktikasının genişləndirilməsinə müvafiq şərait yaradılacaqdır. Tibb işçilərinin əməyinin son nəticəyə görə qiymətləndirilməsi prinsipinin tətbiq olunması üçün tədbirlər görüləcəkdir.

Ölkədə səhiyyə sistemində həyata keçirilən mühüm islahatlar nəticəsində dövlət büdcəsində səhiyyənin inkişafına ayrılan vəsaitin məbləği ilbəil artırılır, ölkədə yeni müasir müalicə ocaqları inşa edilir və yenidən qurulur. Bu nəhəng quruculuq və yenidənqurma işlərinin reallaşmasında Azərbaycanın birinci Vitse-prezidenti, H.Əliyev Fondunun prezidenti çox hörmətli Mehriban xanım Əliyevanın da danılmaz xidmətləri vardır.

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 27 fevral tarixli 118 nömrəli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq, ölkədə aparıcı texnologiyalarla, müasir tibbi avadanlıqlarla təchiz olunmuş yeni tibbi mərkəzlərin yaradılması işi davam etdirilmişdir.

**- Kamaləddin müəllim, bu yaxınlarda Milli Məclisdə Azərbaycanın 2019-cu il üçün Dövlət Büdcəsinin layihəsi təsdiq olundu. Gələn ilin büdcəsində səhiyyə sahəsində hansı tendensiyalar müəyyənləşib?**

- Ümummilli liderimizin siyasi kursunu yeni dövrün tələblərinə uyğun uğurla davam etdirən Prezident İlham Əliyev digər sahələrlə yanaşı, səhiyyənin də inkişafına xüsusi diqqət və qayğı ilə yanaşır. Məhz bunun nəticəsində səhiyyəyə ayrılan büdcə vəsaiti ilbəil artır.

Bildiyimiz kimi, 2018-ci ilin dövlət büdcəsində səhiyyə xərcləri üçün 740,7 milyon manat vəsait ayrılıb, həmin xərclərin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 3,5 faiz təşkil edirdi.

Belə ki, səhiyyə üçün ayrılan vəsaitin 348,7 milyon manatı və ya 47,1 faizi xəstəxanaların, 109,7 milyon manatı və ya 14,8 faizi poliklinikaların və ambulatoriyaların saxlanılması xərclərinə, 270,7 milyon manatı və ya 36,5 faizi səhiyyə sahəsində aid edilən digər xidmətlər üzrə xərclərə, 11, 7 milyon manatı və ya 1,6 faizi səhiyyə sahəsində tətbiqi tədqiqatlar və digər xidmətlər üzrə xərclərə yönəldilmişdi.

2019-cu il üçün isə səhiyyəyə rekord miqdarda - 1,048 milyard manat vəsait ayrılmışdır. Bu vəsait əsasən, Azərbaycan hökuməti tərəfindən səhiyyə sisteminin inkişafı məqsədilə bir sıra perspektivlər istiqamətlərin reallaşmasına yönəldiləcəkdir: Bunlar aşağıdakılardır:

- səhiyyəyə ayrılan vəsaitin ümumi daxili məhsulda payının dinamik şəkildə artırılması;

-səhiyyənin maddi-texniki bazasının gücləndirilməsi üçün tibb müəssisələrinin tikintisi, əsaslı təmiri və yenidən qurulması, onların müasir tibbi avadanlıqla təchiz edilməsi;

- əsasən stasionar yardıma istiqamətləndirilmiş təbabətdən ilkin tibbi-sanitariya yardımının üstünlük təşkil etdiyi təbabətə keçilməsi;

- səhiyyə sahəsində kadr təminatının təkmilləşdirilməsi, tibb mütəxəssislərinin bilik və bacarıqlarının daim yüksəldilməsi üçün müvafiq mexanizmlərin yaradılması, o cümlədən xarici ölkələrdə təlimlərin təşkil edilməsi və s.

Azərbaycanda səhiyyə xərclərinə ayrnan vəsaitin artım tempi dünyanın əksər ölkələrindən yüksəkdir. Ölkə rəhbərliyinin diqqət və qayğısı nəticəsində mütəmadi olaraq həkimlərin, tibb işçilərinin əməkhaqlarının artırılması, səhiyyə ocaqlarının müasir avadanlıqla, yüksək keyfiyyətli dərman vasitələri ilə təchiz olunması və yeni tibb mərkəzlərinin yaradılması istiqamətində genişmiqyaslı işlərin həyata keçirilməsi bu sahənin sürətli inkişafından xəbər verir.

Azərbaycan hazırda davamlı inkişaf dövrünü yaşayır. İnanırıq ölkəmiz bundan sonra da möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında yeni-yeni zəfərlər qazanacaq və Azərbaycan dünyada lider ölkələrdən birinə çevriləcəkdir!

# Bəhruz Quliyev: "Belə dezinformasiyaların heç biri öz təsdiqini tapmır"

"Prezidentin ailəsi barədə yazılan məqalə Azərbaycana qarşı nifrətin başqa bir formada növbəti təzahürüdür". Bunu AzNews.az-a açıqlamasında siyasi şərhçi Bəhruz Quliyev bu gün Böyük Britaniyanın "The Guardian" nəşrində Azərbaycan Respublikası Prezidenti və onun ailə üzvləri ilə bağlı dərc olunan iftira, böhtan xarakterli material barədə danışarkən dedi. Onun sözlərinə görə, qəzetdə dərc olunan məqalədə irəli sürülən iddiaların heç biri doğru deyil və növbəti bir qarayaxma kampaniyasıdır: "Bu gün Azərbaycanı sevməyən, ona qarşı daim qərəzli və şantaj xarakterlə yanaşan beynəlxalq təşkilatlar və onların himayə etdikləri kütləvi informasiya vasitələri var. Bunlardan biri də Böyük Britaniyanın "The Guardian" nəşridir. Ümumiyyətlə, "Amnesty İnternational", "Human Right Watch" kimi bir sıra qaraguruhçu təşkilatlar öz istədiklərini beynəlxalq mediada da çap etdirə bilirlər. Xüsusilə də Azərbaycana qarşı daim qərəzli mövqe sərgiləyən qəzetlər bu təşkilatlar üçün artıq bir vasitəyə çevrilib".

Ekspert bildirdi ki, "The Guardian" qəzetində Azərbaycan dövlətinin, vəzifəli şəxslərinin, prezidentinin və onun ailəsinin əleyhinə iyrənc xarakterli məqalələrin çap olunması ilk deyil: "Heç şübhə yoxdur ki, onların arxasında müəyyən qüvvələr var. Yazdırtdırırlar, guya ordan-burdan fakt tapırlar, nəyisə əsaslandırmağa çalışırlar. Amma nəticədə onların dediklərinin heç biri təsdiqini tapmır. Əksinə, yalan, böhtan şantaj, Azərbaycan prezidentinə qarşı qərəz mahiyyətinin olduğu ortaya çıxır. Hesab edirəm ki, bu məsələdə hansısa formada erməni barmağı da var. Bilirsiniz ki, bəzi hallarda erməni lobbisi dünya mediasına da yol tapır və öz dezinformasiyasını yaya bilir. Bütün hallarda bu cür məlumatların heç bir əsası yoxdur, kiminsə xülyasıdır. İnanılası bir şey deyil. Çünki dəfələrlə bu tipli, öz cılız təfəkkürlərinə uyğun məlumatlar dərc etdirilib".



B.Quliyev dedi ki, bu tip məlumatlar əsasən ən kritik vaxtlarda - məsələn, Dağlıq Qarabağla bağlı müzakirələrin ən aktivləşdiyi, Azərbaycanda keçiriləcəyi planlaşdırılan mühüm beynəlxalq tədbirlər və ya Azərbaycan dünya miqyaslı idman yarışlarına ev sahibliyi etdiyi bir ərəfədə ortaya atılır. Ona görə, sözügedən məqalə də Azərbaycana qarşı nifrətin başqa bir formada təzahürüdür:

"Ümumiyyətlə, bu tipli nəşrlərə, onların qeyri-obyektiv məqalələrinə reaksiya verməməliyik. Reaksiya verdikcə onlar da özlərində "şərəf" hissi duyurlar".

Ekspertin fikrincə, Azərbaycan günügündən inkişaf etdikcə bu cür təxribat xarakterli informasiyaların da sayı artacaq. Çünki Qərb KİV-lərində zaman zaman dərc olunan bəzi materialların, eləcə də "The Guardian" nəşrində verilən belə məqalələrin müstəqil və prinsipial xarici siyasət yürüdən Azərbaycana, onun region dövlətləri, xüsusən, Rusiya və MDB ölkələri, Türkiyə, İran və s. ilə durmadan inkişaf edən, qarşılıqlı maraqlara və mehriban qonşuluq prinsipinə əsaslanan əlaqələrinə təzyiq xarakteri daşıması heç kəsə sirr deyil.

# Hikmət Babaoğlu: ""The Guardian"da dərc edilənlər yalan və uydurmalara əsaslanır"

"Müasir beynəlxalq münasibətlər sistemində informasiya müharibəsi yumşaq güc vasitələri ilə aparılan ən effektiv müharibə formalarından biridir. Bəzi dövlətlər informasiyanı təzyiq vasitəsi kimi, bəzi dövlətlər şantaj vasitəsi kimi, bəzi dövlətlər isə idarəetmə rıçaqı kimi görür və öz maraqları üçün bundan istifadə edirlər. Transmilli media da bu qəbildən olan beynəlxalq təzyiq vasitələrindən biridir". Bu fikirləri SİA-ya "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu deyib.



Millət vəkili qeyd edib ki, adətən belə media vasitələrində milli dövlətlərin liderləri, onların ailə üzvləri, yaxınları və siyasi komandasına daxil olan şəxslər haqqında müxtəlif əsası olmayan neqativ informasiyalar yaymaqla bir növ həmin dövlətə təzyiq etməyə çalışırlar: "Azərbaycana münasibətdə də belə hallar istisna deyil. Müxtəlif vaxtlarda bu tipli metodlarla bəzi informasiya hücumları təşkil olunub və bu, həmişə Azərbaycanın müstəqil siyasət həyata keçirməsi və milli maraqları qətiyyətlə müdafiə etməsi ilə bağlı olub. Elə dekabrın 21-də Böyük Britaniyanın "The Guardian" nəşrində Azərbaycan Respublikası Prezidentinin ailə üzvləri ilə bağlı iftira və böhtan xarakterli materialların verilməsi də növbəti bu tip çirkin addımlardan biridir. Məsələ ondadır ki, hazırda olduqca mürəkkəb bir tarixi mərhələdən keçirik və yaşadığımız geostrateji rayonda mürəkkəb qlobal siyasi oyunlar davam edir. Belə məsuliyyətli və gərgin dövrdə Azərbaycan Prezidenti daim milli maraqlardan çıxış edərək olduqca mühüm qərarlar qəbul edir və bu qərarları qonşu və dost ölkələrin maraqları ilə uzlaşdırır".

"Hər kəsə bəllidir ki, bu gün Azərbaycanın şimal, cənub və qərb qonşuları Yaxın Şərq məsələsində sinxron hərəkət etməklə qlobal imperializmi bu böyük və dağıdıcı layihələrində kardinal dəyişikliklər etməyə məcbur buraxdılar. Bu mühüm siyasi prosesdə Azərbaycan milli və regional maraqlardan çıxış etməklə mənsub olduğumuz siyasi coğrafiyada idarəolunan xaos nəzəriyyəsinin tətbiq olunması siyasətini dəstəkləmədi. Eyni zamanda, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin həllində prinsipial mövqe nümayiş etdirməklə nə iqtisadi, nə də kommunikasiya sahəsində üstüörtülü şəkildə işğalçı ölkəni himayə edən güc mərkəzlərinin güzəştə getmədi. Tam əksinə, regionu diplomatiya mərkəzinə çevirməklə öz ətrafına strateji tərəfdaşlar toplayaraq yeni siyasi-iqtisadi reallıqlar yaratmaqla Ermənistanı daha da küncə sıxışdırdı. Bütün bunların hamısı Azərbaycanın regionun ən müstəqil siyasi aktoru olduğunu bir daha sübut etmiş oldu. Belə mövqe isə bəzi qlobal güc mərkəzlərini narahat etməyə bilməz. Ona görə də belə mərkəzlər tərəfindən informasiya gücü vasitəsilə siyasi təzyiq metodları həyata keçirilir ki, bu da ölkəmizə münasibətdə əsla effektiv ola bilməz. Çünki dərc edilənlər yalan və uydurmalara əsaslanır və konkret çirkin məqsədlərə hesablanıb",- deyə "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu vurğulayıb.

# Musa Quliyev: Prezident İlham Əliyevin birdəfəlik yardımla bağlı sərəncamı aztəminatlı ailələrə qayğının ifadəsi, bir bayram hədiyyəsidir

***Prezident İlham Əliyevin aztəminatlı ailələrə birdəfəlik yardım verilməsi haqqında sərəncamı dövlət başçısının aztəminatlı vətəndaşlara bir bayram hədiyyəsidir. Bunu Milli Məclisin deputatı Musa Quliyev deyib.***

M.Quliyev bildirib ki, bu ənənənin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub və Prezident İlham Əliyev tərəfindən davam etdirilir: "Aztəminatlı ailələrə, şəhid ailələrinə, müharibə veteranlarına mütəmadi olaraq bu cür müavinətlər verilir. Bu, həm bizim milli adət-ənənələrimizə bağlılıqdır, həm də dövlət başçısının aztəminatlı insanlara qayğısının ifadəsidir".

Deputat vurğulayıb ki, bütövlükdə bu sərəncam Prezident İlham Əliyevin apardığı sosial siyasətin, aztəminatlı insanlara qayğı siyasətinin məntiqi davamıdır:



"Cənab Prezidentin son aylarda bir neçə bu cür fərman və sərəncamları olub. Aztəminatlı insanların, qaçqın və məcburi köçkün ailələrinin, əlillərin, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, şəhid ailələrinə birdəfəlik müavinətin verilməsi və s. ilə bağlı tədbirlər ölkə başçısının sosial siyasətinin davamıdır".

M.Quliyev bildirib ki, Prezidentin bu sərəncamı birmənalı olaraq vətəndaşlarımız tərəfindən hörmətlə və minnətdarlıqla qarşılanır: "Bu, bütövlükdə Azərbaycan vətəndaşlarının dövlətə bağlılığını, cənab Prezident ətrafında sıx birləşməsinin ifadəsidir".

Qeyd edək ki, Prezident İlham Əliyevin Aztəminatlı ailələrə birdəfəlik yardım verilməsi haqqında 2018-ci il 19 dekabr tarixli sərəncamı ilə dekabrın 28-nə ünvanlı dövlət sosial yardımı alan ailələrin hər birinə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə 100 manat məbləğində birdəfəlik yardım ödəniləcək. Birdəfəlik yardımın maliyyələşdirilməsi məqsədilə 2018-ci il dövlət büdcəsində ünvanlı dövlət sosial yardımı və sosial müavinətlər üçün nəzərdə tutulmuş vəsaitin xərclənməmiş qalıq hissəsindən 5 milyon manat ayrılıb.

# İqtisadiyyat naziri Bərdədə vətəndaşları qəbul edib

Dekabrın 21-də iqtisadiyyat naziri Şahin Mustafayev Bərdədə Yevlax, Tərtər, Ağcabədi, Ağdam, Laçın və Bərdə rayonlarından olan vətəndaşları qəbul edib. İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qəbula gələn vətəndaşlar sahibkarlıq fəaliyyəti, güzəştli kreditlərin verilməsi, istehsal, emal və xidmət müəssisələrinin, sənaye məhəlləsində gübrə istehsalı müəssisəsinin yaradılması, sosial və s. məsələlərlə bağlı müraciət ediblər.

İqtisadiyyat Nazirliyinin aidiyyəti struktur bölmələrinin rəhbərlərinin iştirakı ilə keçirilmiş qəbulda vətəndaşlar nazir Şahin Mustafayev tərəfindən diqqətlə dinlənilib, qaldırılan məsələlərin böyük əksəriyyəti yerindəcə həllini tapıb, digər müraciətlərin operativ araşdırılması və qanunvericiliyə uyğun həlli üçün müvafiq tapşırıqlar verilib. İqtisadiyyat Nazirliyinin səlahiyyətlərinə aid olmayan məsələlərlə bağlı müraciət edən vətəndaşlara isə ətraflı izahat verilib, bu müraciətlər aidiyyəti strukturlara çatdırılması üçün qeydiyyata alınıb. Eyni zamanda, qəbula gələn sahibkarların təklifləri müzakirə edilib, onların taxılçılıq, pambıqçılıq, badamçılıq, çuğundur əkini, tərəvəzçilik, heyvandarlıq, balıqçılıq, mebel istehsalı, Bərdə, Quba və Göygöl rayonlarında otel və turizm obyektlərinin tikintisi, çörək istehsalı və s. sahələr üzrə investisiya layihələrinin güzəştli kreditlər hesabına maliyyələşdirilməsi barədə müvafiq göstərişlər verilib. Qəbula gələn digər şəhər və rayonlardan olan vətəndaşların müraciətləri də dinlənilib, operativ həlli üçün lazımi tədbirlər görülüb. Ümumilikdə qəbulda 50-yə yaxın vətəndaş müraciət edib. Qəbula gələn vətəndaşlar bölgələrdə vətəndaşların qəbulunun təşkilinə, göstərilən hərtərəfli diqqət və qayğıya, yaradılan şəraitə görə Azərbaycan Respublikasının Prezidentinə minnətdarlıqlarını bildiriblər.

# Erməni KİV-ləri Paşinyanın milli maraqları qoruya bilmədiyini yazır

## *"Armenianreport": "Ermənistan KTMT-də baş katiblik postu uğrunda döyüşdə məğlub olub"*

***Ermənistanın KTMT məsələsində ağır məğlubiyyətə uğraması, artıq bu ölkənin mediasında çoxsaylı müzakirələrə səbəb olmaqdadır. "Armenianreport" saytında Nikol Paşinyanın bütün cəhdlərinə baxmayaraq, KTMT-də Ermənistanın mövqeyinin qoruyub-saxlaya bilməməsi faktı ətrafında şərh verilib və həmin şərhdə bir sıra məqamlara toxunulub. Xüsusilə, KTMT-nin üzv ölkələrinin birgə şəkildə Ermənistanın tələblərini rədd etmələri nə qədər maraqlı görünsə də, bu addım, eyni zamanda, "Azərbaycanın günahı" kimi qələmə verilib. Daha dəqiq desək, Azərbaycanın bu quruma üzv olan digər ölkələrlə hərbi-siyasi əməkdaşlığı erməniləri məyus edib. Digər tərəfdən, adıçəkilən hərbi alyansın qarşıdakı illərdə Ermənistanın baş katibliyi ilə idarə olunmayacağının dəqiq olduğunu yazan erməni saytı yazıb: "Bu, onun etirafıdır ki, Ermənistan KTMT-də baş katiblik postu uğrunda döyüşdə məğlub olub".***





Daha bir məqam, 2020-ci ilə qədər KTMT-yə Rusiya təmsilçisi Semerikovun rəhbərlik edəcəyi, onun ardınca isə belaruslu Stanislav Zaysın onu əvəzləyəcəyi ilə bağlı irəli sürülən fikirlərdir. Məhz bu məsələdə Belarus generalının Bakının Ali Ümumqoşun Məktəbinin məzunu olduğu xatırladılır. Eyni zamanda, general Zaysın Minsk ilə Bakı arasındakı hərbi-texniki əməkdaşlığında lobbiçilik etdiyi bildirilir. Bu faktın erməni tərəfini necə təlaşlandırması isə göz önündədir. O da, əbəs deyil ki, Paşinyan hakimiyyətinin anti-Rusiya xarakterli çıxışları rəsmi Moskvanın qəzəbinə səbəb olub. Bu baxımdan, sözügedən şərhdə Rusiyanın da bu mövqedə ermənilərə dəstək verməməsi göstərilir, o cümlədən, Paşinyanın yanlış siyasətinə eyham vurulur: "Şübhə etmək olmaz ki, Moskva KTMT-yə baş katibin seçilməsi məsələsində publikaya neytral mövqedə olduğunu nümayiş etdirir, ancaq həqiqətə qalanda, artıq çoxdan öz qərarını verib və bu, heç də Ermənistanın xeyrinə deyil..."

Beləliklə, belə bir vəziyyətin yaranmasında, əsasən, Nikol Paşinyan ittiham olunub. Misal üçün, sözügedən şərhdə yazılıb ki, KTMT-nin Ermənistanın maraqlarının üzünə tüpürməsindən sonra, erməni xalqının çoxunun dəstəyi ilə parlament seçkilərində qələbə qazanan Paşinyan milli maraqlar məsələsində daha qərarlı olmalıydı.

O cümlədən, yazıda ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonun Yerevana səfəri çərçivəsində onun Ermənistanın Rusiyaya orientasiyası məsələsindən geri çəkilməsinin vacibliyi barədə səsləndirdiyi bəyanatı da xatırladılıb. "Daha nə baş verməlidir, ölkəmizə daha hansı məsələyə görə tüpürülməlidir ki, hakimiyyət sonda ayılsın və Rusiyanin deyil, Ermənistanın maraqlarına cavab verən xarici siyasət aparsın? Bizi KTMT-də aşağıladılar. Bizi Avrasiya İttifaqında sıxışdırırlar. Biz isə, bu cür efemer təşkilatlardan yapışırıq. Bəlkə, doğrudan da, biz tarixi ənənələrimizdən qurtulmalıyıq?" deyə şərhdə sual edilir.

Bütün bunlar bir daha sübut edir ki, əslində, Ermənistanın xarici siyasətindəki məğlubiyyətlərinin kökündə güclü Azərbaycan dövləti dayanıb və işğalçı ölkə bundan sonra daha ağır məğlubiyyətlərə düçar olmaqla yanaşı, beynəlxalq arenadakı rolunu birdəfəlik itirmək təhlükəsi ilə qarşı-qarşıya qalmalı olacaq.

***Rövşən RƏSULOV***

# Hamıya it hürər, bizə də çaqqal...

## *Yaxud "Aslan" ola bilməyən Allahverdi İsmayılov haqqında qara "esse"*



### Belə bir el deyimi var, hamıya it hürər, bizə də çaqqal...

İndiki dövrdə hürənlər çoxdur. Götürək elə özünə "Aslan" adı götürən Allahverdini - bu gün özünü ictimai rəyə Aslan İsmayılov kimi təqdim edən vaxtilə SSRİ prokurorluğunda çalışan Sumqayıt hadisələrində ittiham edilən azərbaycanlılara ölüm hökmü istəyən ittihamçı MİLLƏT XAİNİ. O, bu gün də keçi qılından fərqlənməyən "incə" boynunun ardında onların ağır haqlarını daşımaqdadır.

### "Aslanın" ÇAQQALA dönmək faktı

Ümumiyyətlə, bir adam ki, atasının-anasının ona qoyduğu addan imtina edə, demək, o, nə zamansa öz soyundan, nəslindən də imtina etmək "gücünü" də özündə tapar. Belə "adamlara" nankor, xain, satqın, əqidəsiz, ləyaqətsiz və əlbəttə ki, soyundan imtina edən bişərəf (!) də deyilir. İnanmayan, aşağıdakı şəkillərə bir daha baxa və bundan nəticə çıxara bilər.

Lakin özünə "Aslan" adı qoyan Allahverdi İsmayılov həyatda yuxarıda qeyd etdiyimiz ifadələrin hər birinə nail olmağı bacarsa da, yalnızca gerçək Aslana dönə bilmədi. Əksinə, döndü oldu ÇAQQAL və...

...Və indi də özü barədə mətbuatda, elə götürək "SƏS" qəzetində gedən reallıqları inkar edərək, bu yazının əvvəlindəki el məsəli kimi, başlayıb hürməyə. Kimlərəsə itlər hürür, bizə də çaqqal..! Özü də çaqqalların hürməsi çox ətürpədici olur, ətürpədici və iyrənc..!

### "Aslan" İsmayılov unudur ki, gerçək qələm sahibləri ilə çiling-ağac oynamaq onluq deyil!

Nə isə, keçək məsələnin əsas məğzinə. Məğz isə budur ki, bu gün söz və ifadə azadlığından danışan, üzr istəyirəm, hürən (!!!) çaqqal hansısa səbəbdən, jurnalistikada onun barəsində işıqlandırılan yazılardan hürkür və dərhal öz trollarını çaqqal sürüsütək hücum etdirir yazı müəlliflərin üzərinə. Həqiqət acı olar, deyiblər. Onun barəsində ictimailəşdirilən həqiqətlərə normal, sivil şəkildə cavab tapa bilməyən ÇAQQAL, yenə də üzr istəyirəm, "Aslan" İsmayılov unudur ki, gerçək qələm sahibləri ilə çiling-ağac oynamaq onluq deyil. Yeni lazım gələrsə, həmin qələmlərin perosundan ona qarşı ömründə eşitmədiyi ifadələr şığıyar və nəticədə o, dəfələrlə qapılar arasında qalmış yoluq quyruğunu bu dəfə ayaqları arasına qısıb bir güncə, dalana sıxılar, üstəlik, "piş-piş" edib özünü də batırar.

### Özünə "kişi" adı qoyanın ayağısürüşkənliyi bar fahişələrinin ayağısürüşkənliyindən daha betər olur

Biz, uzun illərin jurnalistləri olaraq, "Aslan" İsmayılovun, yəni Allahverdinin ingilis bayrağı kimi sağa-sola əsməsinin dəfələrlə şahidləri olmuşuq. Beləsinə həm də AYAĞISÜRÜŞKƏN deyərlər. Özünə "kişi" adı qoyanın ayağısürüşkənliyi isə, bar fahişələrinin ayağısürüşkənliyindən daha



Трудовая книжка

АТ-I № 1856680

Фамилия Исмаилов

Имя ~~Аллахверди~~ Аслан

Отчество Зилдин Оглы

Дата рождения 20 февраля 1958 г. (число, месяц, год)

Образование Среднее (н/среднее, среднее, н/высшее, высшее)

Профессия, специальность токарь

Дата заполнения 24 сентября 1975 г.

Подпись владельца книжки

М.П.

Подпись лица, ответственного за выдачу трудовых книжек

(разборчиво)

1

betər olur. Hətta elə betər olur ki, Allah göstərməsin...Amma göstərdi, özü də "Aslan" İsmayılovun timsalında.

Maraqlı cəhətlərdən daha birini də göstərə bilərik. Bir "adam" ki, ALLAH adından imtina edib, bunu gələcək karyerasına görə - hüquq-mühafizə orqanlarında işləmək, bol-bol rüşvət almaq, korrupsiya əməllərində canfəşanlıq etmək üçün "aslanlaşdırırsa", bax, həmin ALLAH da gec, ya da tez onun belini qıracaq. Özü də elə qıracaq ki, gəl görəsən...

***Rövşən RƏSULOV***

***P.S.** Axşamın bu çağında çaqqal barədə qara "esse" yazarkən, küçənin o tayında bir ulartı eşidildi. Əcəba, o da "Aslan" İsmayılov olmasın ki?!*



*Zaman-zaman Qərbin müəyyən KİV-ləri Azərbaycan dövləti və hakimiyyəti barədə heç bir fakta əsaslanmayan, açıq-aydın şəkildə böhtan xarakterli yazı və məqalələrlə çıxışlar edirlər. Söz yox ki, bu kimi cəhdlər elə ilk andaca uğursuzluqla nəticəsini tapır. Çünki ən azı, Azərbaycana səfərlər edən on minlərlə xarici turistlər, xüsusilə, təşkil edilən müxtəlif beynəlxalq forum və konfranslaa iştirakçı qismində qatılan Avropa və Qərb nümayəndələri ölkəmizdə mövcud olan demokratik dəyərlərin, azadlıq və plüralizmin şahidlərinə çevrildiklərini bəyan edirlər. Çox yəqin ki, onlar istər "The Guardian", istərsə də digər böhtançı nəşrlərdə gedən qərəzli yazı və məqalələrə ciddi olaraq yanaşma etmirlər. Bu baxımdan, dekabrın 21-də Böyük Britaniyanın "The Guardian" nəşrində getmiş növbəti iftira yazısı, əslində, müəyyən tarixə malik olan bu nəşrin reytinqinə köklü zərbə vurub.*

# "The Guardian"ın çirkin kampaniyası təzyiq xarakteri daşısa da...

## *Bu kimi cəhdlər uğursuzluqla nəticələnir*

### Bu qəzet açıq-aşkar korrupsiya əməllərinə qurşanıb

Ümumiyyətlə, istər qərəz, istər ədəbsizlik, istərsə də, sözün əsl mənasında, tərbiyəsizlik xarakteri daşıyan həmin məqalədə dövlətimizin başçısı, eləcə də, Onun ailə üzvləri ilə bağlı verilmiş şər-böhtanlı material sözügedən yazının sifarişlərə əsaslandığını da tam çılpaqlığı ilə sübuta yetirməkdədir. Buradan, həm də belə nəticəyə gəlmək mümkündür ki, bu qəzet açıq-aşkar korrupsiya əməllərinə qurşanıb. Daha dəqiq desək, onun sifarişlə yazdığı böhtan xarakterli yazıların arxasında maddiyyat maraqlarının dayanması şübhəsizdir.

Buradan həm də, belə bir nəticə çıxarmaq olar ki, bu tipli sifarişli iftiralar müxtəlif xarici KİV-lər tərəfindən əvvəlki dövrdə irəli sürülsə də, heç bir təsdiqini tapmayıb.

Azərbaycanın beynəlxalq arenada müstəqil və balanslı siyasət yürütməsi, mühüm tribunalarda söz sahibinə çevrilməsi bir sıra xarici dairələri ciddi şəkildə narahat edir.

Yeri gəlmişkən, müxtəlif yerli və xarici ekspertlər də bənzər halların heç bir sübuta əsaslanmadığını deyir, o cümlədən, qeyd edirlər ki, Qərb KİV-lərində zaman-zaman dərc olunan bəzi materiallar, o cümlədən, "The Guardian" nəşrində verilən belə məqalələr müstəqil və prinsipial xarici siyasət yürüdən Azərbaycan Respublikasına, onun region dövlətləri, o cümlədən, Rusiya və MDB ölkələri, Türkiyə, İran və s. ilə günü-gündən inkişaf edən, qarşılıqlı maraqlara və mehriban qonşuluq prinsipinə əsaslanan əlaqələrinə təzyiq xarakteri daşıyır.

Beləliklə, fakt budur ki, əslində, Azərbaycanın beynəlxalq arenada müstəqil və balanslı siyasət yürütməsi, mühüm tribunalarda söz sahibinə çevrilməsi bir sıra xarici dairələri ciddi şəkildə narahat edir və nəticədə onlar müxtəlif iyrənc üsullara əl ataraq, beynəlxalq rəydə yanlış informasiyalar yaratmağa çalışırlar. Fəqət, bu kimi cəhdlər, əlbəttə ki, nəticəsiz qalmaqla yanaşı, belə KİV-lərin məntiqsizliklərini də sübuta yetirir.

**Rövşən NURƏDDİNOĞLU**

# "Belə iftiralar və yalanlar öz təsdiqini tapmayıb"

***"Bu gün Böyük Britaniyanın "The Guardian" nəşrində Azərbaycan Respublikası Prezidentinin ailə üzvləri ilə bağlı yalan, iftira ilə dolu və böyük bir qarayaxma kampaniyasının tərkib hissəsi olan bir məqalə dərc olunub". Bunu SİA-ya açıqlamasında millət vəkili Elman Nəsirov deyib.***



Deputatın sözlərinə görə, bu ilk hadisə deyil: "Biz əvvəllər də anoloji yanaşmaların şahidi olmuşuq. Lakin hər dəfə də belə iftiralar və yalanlar təbii ki, öz təsdiqini tapmayıb. Belə olan təqdirdə sual yaranır. Niyə "The Guardian" nəşrində bu səpkili yazılar dərc olunur? Niyə məhz indi? Hesab edirəm ki, bu sualın cavabını verməs üçün ilk növbədə ona diqqət yetirmək lazımdır ki, Azərbaycan dövləti öz daxili və xarici siyasətində bu və ya digər şəkildə çox ciddi uğurlara imza atarkən ölkəmiz hər zaman hədəfə götürülür. Ona görə Azərbaycan hədəfə götürülür ki, ölkəmizin bütün bu uğurlarının əsasında Azərbaycan Prezidenti cənab İlham Əliyevin düşünülmüş, məqsədyönlü, sistemli fəaliyyəti dayanır. Bütün bu uğurlarımızın təminatçısı da odur və onun xalqla birliyidir. Bu səbəbdən də əsas hədəf cənab İlham Əliyevdir və onun ailə üzvləridir. Bununla da onlar Azərbaycan dövlətinin simvollarından biri olan Prezidentə təzyiq göstərirlər və beləcə öz qarayaxma kampaniyalarını həyata keçirirlər.

Hesab edirəm ki, "The Guardian" nəşrində çap olunmuş məqalə sifarişli məqalədir. Bu məqaləni yazan antiazərbaycan qüvvələrin və ünsürlərin sadəcə yuxularına haram qatıldığından onlar bu cür qarayaxma kampaniyasına yenidən start veriblər. Onların yuxularına ona görə haram qatılıb ki, Azərbaycan bu gün çox sürətlə inkişaf etməkdədir. Bu gün siz təsəvvür edin ki, Azərbaycan dünyanın diplomatik mərkəzlərindən birinə çevrilməkdədir. NATO-nun Ali rəhbərliyi ilə Rusiyanın Ali rəhbərliyi artıq üçüncü dəfədir ki, Azərbaycan paytaxtında görüş keçirirlər. Təkcə öz aralarında deyil, dünyanı narahat edən ən qlobal təhlükəsizlik məsələlərini məhz nə Stokholmda, Brüsseldə, nə də Cenevrədə deyil, məhz Azərbaycanın paytaxtı Bakıda müzakirə edirlər. Niyə Bakıda? Çünki Azərbaycan Prezidenti cənab İlham Əliyev elə bir düzgün siyasət, müstəqil siyasət həyata keçirib ki, Bakıya Moskva, Vaşinqton da dost kimi baxır. Təsadüfi deyildir ki, Azərbaycan Prezidenti bu görüşlə bağlı söylədi ki, "Azərbaycan Rusiya, NATO ilə də dostdur. Biz çox istərdik ki, bizim dostlarımız da öz aralarında dost olsunlar". Bax görün necə böyük bir ismarıc və böyük mənası olan bir fikirdir. Məhz bunu Azərbaycanı sevməyən qüvvələr həzm edə bilmirlər. Beləcə onların yuxularına haram qatılır.

Ölkə başçısının yeritdiyi çox uğurlu, çevik, balanslı və hücum praktikasına söykənən xarici siyasət kursu sayəsində bu gün bizim Rusiya ilə münasibətlərimiz çox yüksək inkişaf səviyyəsinə gəlib çatıb. Eləcə də Türkiyə ilə münasibətlərimiz dövlətlərarası münasibətlər necə olmalıdır sualına cavab verə biləcək bir unikal səviyyədədir. Həmçinin bizim İran dövləti ilə münasibətlərimiz yüksək inkişaf səviyyəsindədir. Eyni zamanda Avropa İttifaqı ilə münasibətlərimiz dinamik inkişaf tempinə malikdir. Avropa İttifaqının 9 dövləti ilə bizim strateji tərəfdaşlıq münasibətlərimiz var. Avropa İttifaqı Azərbaycanla "tərəfdaşlıq prioritetləri" adlı sənəd imzalayıb. Həmin sənəddə Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini, sərhədlərin toxunulmazlığını növbəti dəfə tanıyıb. Anoloji qərarı NATO-nun Brüssel Sammitində qəbul edilir və onun yekun sənədində münaqişənin həlli ilə bağlı məhz bu mövqe ortalığa qoyulur. Xalqımız bütün bunları görür və çox gözəl dərk edir".

# "Ölkədə insanların sosial müdafiəsi ilə bağlı sistem qurulub"



"Azərbaycan Prezidentinin aztəminatlı ailələrə birdəfəlik yardımla bağlı imzaladığı sərəncam ilk növbədə humanitar xarakterli addımdır. Ölkə başçısı həmin şəxslərə bu dəstəyi ilk növbədə onların həssas əhali qrupuna aid, istək və qayğıya ehtiyacları olduğu və nisbətən aşağı gəlirli insanlar olduqları üçün göstərib". Bu fikirləri SİA-ya açıqlamasında "Bakı-Xəbər" qəzetinin baş redaktoru, siyasi şərhçi Aydın Quliyev deyib. O bildirib ki, Azərbaycan Prezidentinin sərəncamı bayramqabağı aztəminatlı ailələrin maddi və mənəvi vəziyyətinə biganə qalınmadığını bir daha göstərdi: "Əlbəttə öz doğum günü kimi əlamətdar hadisəni qaçqın və məcburi köçkünlərin arasında qeyd etmək kimi sadə həyat tərzi ilə seçilən dövlət başçısının həssas əhali qruplarına davamlı qayğı nümayiş etdirməsi həmişə gözlənilən addımdır".

Baş redaktor söyləyib ki, Azərbaycanda yüz minlərlə xüsusi təbəqə insanlarını əhatə edən ən müxtəlif yardım və dəstək proqramları dövlət siyasətinin tərkib hissəsini təşkil edir: "Azərbaycan bu cəhətdən dünya ölkələrinin böyük bir qismini əhəmiyyətli dərəcədə qabaqlayır. Bunlar onu göstərir ki, Azərbaycan dövləti və şəxsən cənab Prezident imkansız insanları və əhali qruplarını rifah içində, öz yüksək şərəf və ləyaqəti ilə yaşamasını təmin etmək istəyir. Bu o deməkdir ki, Azərbaycanda güclü dövlət və humanist prezident olduğu üçün heç kim öz taleyinin öhdəsinə buraxılmır. Əksinə, dövlət hər kəsə sahib çıxır, iş qabiliyyəti olanları işlə, əmək qabiliyyəti məhdud olanları isə dövlətin sosial müdafiə proqramlarının əhatə dairəsinə alır".

A. Quliyev qeyd edib ki, Prezident İlham Əliyevin sosial müdafiə siyasəti özünün bütün təzahür formaları ilə Konstitusiyada təsbit olunmuş sosial dövlət quruculuğunun təcəssümüdür: "Maraqlı cəhətlərdən biri də budur ki, prezident ölkəmizin iqtisadi qüdrəti möhkəmləndikcə fasiləsiz olaraq belə geniş sosial müdafiə aktları həyata keçirir, gecikmədən addım atır. Bütün bunlar göstərir ki, ölkəmizdə insanlarımızla bağlı bütün müdafiə addımlarının öz zamanında atılmasını reallaşdıran sistem və mexanizmin qurulub və fəaliyyət göstərir. Belə sistemin mövcudluğu sosial müdafiə xarakterli saysız işlərin bundan sonra da davam etdiriləcəyini deməyə əsas verir".

# Vigen Sarkisyan: "Ermənistan investorların diqqətlərini cəlb etməyəcək"

"Nikol Paşinyan artıq nitq söyləyərək müxalifətçilik etməyini bir kənara qoyub, ölkənin rəhbəri və lideri olmalıdır". SİA xəbər verir ki, bu barədə Ermənistanın sabiq müdafiə naziri, Respublika partiyasının üzvü Vigen Sarkisyan Facebook səhifəsində yazıb. Onun fikrincə, erkən parlament seçkilərindən sonra yeni parlament formalaşdırılıb, lakin bu parlamentdə real müxalifət təmsil olunmur ki, bu da istər ölkənin gələcəyinə, istərsə də Paşinyana və onun tərəfdarlarına ciddi risklər yaradır. Vigen Sarkisyasn Nikol Paşinyanın digər çatışmayan cəhətləri barədə də yazıb. SİTAT: "Hakimiyyətə olmasının 8-ci ayında o, hər şeyi öncəki hakimiyyətin üzərinə yıxmağa cəhd edib. Artıq ciddi olmağın və cavabdehliyi öz üzərinə götürməyin vaxtı çatıb. Öncəkiləri ittiham etmək nə qədər rahat olsa da, bu mövcud problemlərin həllinə, ölkənin inkişafına, eləcə də xalqın, həmçinin beynəlxalq partnyorların hakimiyyətə inamına heç bir köməklik göstərməyəcək". "Bundan əlavə, ölkə deyilməyəcək dərəcədə keçmişi və gələcəyi olan dövlətə çevriləcək ki, bu da nə investorların, nə də potensial repatriantların diqqətlərini cəlb etməyəcək", deyə yazan Vigen Sarkisyan Nikol Paşinyanın xalqı gündəlik efirə öyrətdiyini yazaraq, artıq bu dövrün də geridə qaldığını qeyd edib: "İndi, işləməyin və nəticələr əldə etməyin vaxtıdır".

# Paşinyan Moskvaya məşhər ayağına gedir

## *Moskva səfəri ona baha başa gələ bilər*

***Ermənistanın baş naziri səlahiyyətlərini icra edən Nikol Paşinyan gələn həftə Rusiyaya işgüzar səfər edəcək. Politoloqların sözlərinə görə, hələlik, ilkin mərhələdə Moskva Paşinyana ancaq Ermənistana verdiyi qazın qiymətini qaldırmaqla xəbərdarlıq edir. Məlumatlara görə, Rusiya 2019-cu ilin 1 yanvarından etibarən Ermənistana satdığı qazın qiymətini hər 1000 kubmetr üçün 215 dollara qaldıracaq.***

"168 Jam" qəzetinin yazdığına görə, Rusiya baş naziri Dmitri Medvedevin müavini Dmitri Kozak Ermənistan hökumətinə, konkret olaraq, erməni həmkarı Tiqran Avinyana rəsmi məktub ünvanlayaraq, 2019-cu ildən etibarən Rusiyanın satdığı təbii qazın qiymətinin artacağını qeyd edib. Məktubda Dmitri Kozak bildirib ki, Rusiyanın sərhəddəki qazının min kubmetrinin qiyməti 215 dollar olacaq və bu qərar müzakirəyə qoyulmur: "Məsələ ilə bağlı biz Avinyanın özündən şərh almağa çalışdıq. Amma onun ofisinin rəhbəri Varaq Siseryan bildirdi ki, baş nazirin müavini gün ərzində bir neçə görüşdə iştirak edəcəyindən, suala cavab verməyə vaxtı olmayacaq. Bununla belə, qaydalara uyğun olaraq, ofis 5 gün ərzində bu sualı cavablandıracağını deyib" - deyə qəzet yazır.

Qeyd edək ki, hazırda Ermənistan sərhəddə Rusiya qazının min kubmetrini 150 dollara alır. İrəvan bu qiymətin daha da azaldılmasını istəyir və bunun üçün Moskva ilə danışıqlar aparır. Erməni KİV-ləri isə, yazırlar ki, razılıq əldə olunmazsa, gələn ildən Rusiya təbii qazını Ermənistana daha baha qiymətə satacaq ki, bu da, erməni istehlakçılarının daha çox vergi verməsi ilə nəticələnəcək.

Ümumilikdə, 150 dollar Rusiyanın digər ölkələrə satdığı qazın qiymətindən bir neçə dəfə ucuzdur. Adətən, hansısa MDB ölkəsi Rusiyanın təsir dairəsindən çıxaraq, Qərbə inteqrasiya yolunu tutursa, Moskva dərhal həmin dövlətə münasibətdə bir sıra təzyiq metodlarına əl atır. Bu təzyiq metodlarından biri də, məhz satdığı qazın qiymətini bahalaşdırmasıdır. Vaxtilə Kreml Baltikyanı ölkələrə və Ukraynaya münasibətdə, məhz bu vasitələrdən istifadə edib. Ermənistandakı Paşinyan hakimiyyəti də qərbpərəst hökumət kimi tanınır. Bu mənada, Rusiyanın qazın qiymətilə bağlı analoji addımı gözlənilən idi.

Maraqlıdır, bəs ekspertlər bunu necə şərh edirlər?

Sözügedən məsələni dəyərləndirən politoloq Natiq Mirinin fikrincə, Rusiya öz təsiri altında olan dövlətlərin Qərbə meyillənməsinə cavab olaraq, onlara satdığı qazın qiymətini artırır: "Kreml, hələlik, Ermənistana münasibətdə ancaq bu rıçaqdan istifadə etməklə kifayətlənəcək. Cari ilin dekabrından sonra Rusiyanın Ermənistana verdiyi qazın qiymətini qaldıracağı gözləniləndir. İlk öncə, Paşinyan hökumətinə xəbərdarlıq edilir ki, Moskvanın hansı səviyyədə İrəvana güzəşt etdiyini anlasınlar. Çünki min kubmetri 150 dollara heç bir dünya bazarında qaz satılmır. Bu mənada, səslənən fikirlərə görə, Rusiya Ermənistanla qaz sahəsində yeni müqaviləni daha yüksək qiymətlərin müəyyənləşməsi fonunda başlayacaq. Ola bilər, Rusiya bu dəfə Ermənistana qazı 200 dollardan baha satsın. Qazın qiymətinin bahalaşması müşahidə olunarsa, bu, Ermənistan rəhbərliyinə verilən ciddi iqtisadi xəbərdarlıq olacaq."



### 2018-ci il Paşinyanın hakimiyyətə gəlməsi ili kimi olsa da, 2019-cu il hakimiyyətdən getməsi ili olacaq

Politoloq Qabil Hüseynlinin sözlərinə görə, Paşinyanı qarşıda çox ciddi və ağır günlər gözləyir: "Xüsusilə də, Dağlıq Qarabağ problemi ilə bağlı. Sözsüz ki, Paşinyan "gəmisinin" hansı "limana" - Rusiyaya, yoxsa Qərbə tərəf yan alacağını hələ özünün də dəqiq bilmədiyini güman etmək olar. Yox, əgər bilirsə də, hələ ki, "ermənilik" edərək gizlədir. Görünür, Paşinyan öz ölkəsi daxilində müəyyən islahatlar aparıb, "kreslosunun boltlarını" sıxınca, Rusiyanın ağzını bacardığı qədər boza verərək, vaxt udmaq fikrindədir. Vaxt udmaq isə ermənilər üçün xarakterik bir xüsusiyyətdir. Onlar həm tarixi öz xeyirlərinə saxtalaşdırıb "udmaqda", həm də Qarabağ məsələsində zamanı otuz ilə yaxın uzadaraq, saatları öz xeyirlərinə işlətməkdə mahirləşiblər. Məlum məsələdir ki, Ermənistanın başına hansı "yan"ın gəlməsindən asılı olmayaraq, Dağlıq Qarabağ probleminin həll olunması işində hər hansı bir "quş" buraxa bilməz. O zaman xalq onu elə quş kimi yolar. Ona görə də, Dağlıq Qarabağla bağlı Paşinyanın "xod etməsi" təbiidir. Çünki küçə etirazları üzərində hakimiyyətə gələn Nikol Paşinyan Rusiya rəhbərliyinə verdiyi vədlərə əməl etmədi və insanları yenidən mitinqə çağırması müəyyən şübhələr yaratdı. Ermənilərə anladıblar ki, Dağlıq Qarabağı özbaşına işğal etməyiblər. Onlara ciddi hərbi, maliyyə, ideoloji, təbliğat və diplomatik dəstək olub. Onların sırasında Rusiya da vardır".

Birmənalı həqiqətdir ki, bu gün Ermənistanın bir dövlət olaraq, varlığını davam etdirə bilməsi Azərbaycanla normal münasibətlərin qurulmasından, işğal siyasətindən əl çəkməsindən asılıdır. Əkstəqdirdə, Ermənistanın çöküşü davam edəcək, ölkə daha böyük sürətlə tənəzzül girdabına yuvarlanacaqdır. Bunu, əslində, bütün dünyada, o cümlədən, Ermənistanın özündə də kifayət qədər aydın sezirlər. Ermənistanın "İravnuk" qəzeti yazır ki, İrəvan qonşu ölkələrin hamısı ilə münasibətlərini normallaşdırmasa, Dağlıq Qarabağ münaqişəsinin həllinə nail olmasa, hakimiyyətdə kimin olmasından asılı olmayaraq, ölkədə hansısa iqtisadi tərəqqidən danışmaq mümkün deyil.

Qəzet, bu mənada, Nikol Paşinyanın hakimiyyətə gəlişi zamanı verdiyi vədlərin yerinə yetirilməsinin mümkünsüz olduğunu, əslində, cəmiyyətdə baş nazirə inamın sürətlə əriyib getdiyini də, xüsusi olaraq, diqqətə çatdırır.

### "Bu ağır, çətin vəziyyətdən xilas üçün Ermənistanın yeganə yolu var, o da bizim torpaqlarımızdan çıxmaqdır"

Yeri gəlmişkən, qeyd edək ki, Azərbaycan da, uzun müddətdir ki, işğalçı ölkəyə çox aydın şəkildə Ermənistanın xilasının Dağlıq Qarabağ münaqişəsinin həllindən keçdiyini açıq şəkildə bildirir. Milli Məclisdə Azərbaycan parlamentinin 100 illiyi münasibətilə keçirilən təntənəli iclasda çıxışı zamanı bu mövzuya toxunan Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, Ermənistan işğalçılıq siyasətinə görə böhran və tənəzzül içindədir: "Rəsmi statistikaya görə, orada yoxsulluq 30 faizə, amma real vəziyyətdə 50 faizə çatır. Kütləvi işsizlik, depopulyasiya, insanların kütləvi şəkildə köçü baş verir. İqtisadi inkişaf üçün heç bir əsas yoxdur. Heç kim investisiya qoymaq istəmir, bazar məhduddur, xarici bazarlara çıxış yoxdur. Bu mövcud problemlər, üstə gəl onların işğalçılıq siyasəti, faktiki olaraq, əvvəlki kriminal rejimin çökməsinə gətirib çıxardı. Amma biz görürük ki, indi yeni hökumət də eyni yolla getmək istəyir. Bu ağır və çətin vəziyyətdən xilas olmaq üçün Ermənistanın yeganə yolu var, o da bizim torpaqlarımızdan çıxmaqdır. Ondan sonra onların inkişafı üçün şərait yaradıla bilər".

Ermənistanın "Armenianreport" saytı isə yazır ki, İrəvanın diqqət yetirməli olduğu məqamlardan biri də Azərbaycanın hərbi gücüdür. Saytda Azərbaycan parlamentinin 100 illiyi münasibətilə təntənəli iclasda çıxışı zamanı Prezident İlham Əliyevin fikirlərinə də diqqət yetirilir: "Dağlıq Qarabağ heç vaxt Azərbaycanın suverenliyindən kənarda heç bir status almayacaq. Heç vaxt Azərbaycan xalqı və dövləti imkan verməyəcək ki, onun əzəli, tarixi, hüquqi torpağı ondan ayrılsın. Qoy Ermənistan bu xülyalarla yaşamasın. Qoy Ermənistan rəhbərliyi öz xalqını aldatmasın. Biz bütün imkanlardan istifadə edirik və edəcəyik ki, ərazi bütövlüyümüzü bərpa edək və bu istiqamətdə çox önəmli addımlar atılmışdır".

Beləliklə, siyasi ritorikaya, küçə leksikonuna üstünlük verən Paşinyanı qarşıda xoş olmayan "sürprizlər" gözləyir. 2018-ci il Paşinyanın hakimiyyətə gəlməsi ili kimi olsa da, 2019-cu il hakimiyyətdən getməsi ili olacaq.

**A.SƏMƏDOVA**

## Yerevanda etiraz aksiyaları keçirilir



Ermənistanın Mədəniyyət və Diaspor nazirliklərinin əməkdaşları baş nazir vəzifəsini icra edən Nikol Paşinyanın siyasətinə etiraz əlaməti olaraq tətil və hökumət binasının qarşısında etiraz mitinqi keçirirlər.

AZƏRTAC erməni KİV-lərinə istinadla xəbər verir ki, dövlət qulluqçuları Paşinyanın elan etdiyi struktur islahatları və nazirliklərin aparatında aparılacaq ixtisarlara etiraz edirlər. Yeni hökumətin planına görə, hazırda fəaliyyət göstərən 17 nazirlikdən cəmi 12-si qalacaq. Paşinyanın bu addımı büdcədə olan kəsirlərlə bağlıdır. Diaspor Nazirliyinin əməkdaşlarının isə 90 faizinin işsiz qalacağı bildirilir. Aksiya iştirakçılarının hökumətə yazılı müraciətində qeyd olunub ki, ölkədəki yüksək səviyyədə işsizlik şəraitində dövlət qulluqçularının küçəyə atılması sosial gərginliyi artıracaq və emiqrasiya prosesini gücləndirəcək.

## "Münasibətlərinin kəskinləşməsi erməni xislətindən irəli gəlir"

"Rusiya-Ermənistan münasibətlərinin kəskinləşməsi erməni xarakterindən irəli gəlir. Yəni hələ Paşinyandan da öncə erməni xislətində sürüşkənlik və xəyanət olub. Necə ki, onlar Osmanlı dövlətinə xəyanət etmişdilər və düşmən tərəfə meyillənmişdilər, indi də Rusiya embarqolara məruz qaldıqca, çətinliklərlə üzləşdikcə o sürüşkənlik də özünü göstərir". Bunu SİA-ya açıqlamasında politoloq Məhərrəm Zülfüqarlı deyib.

"Təbii ki, bu Rusiya rəsmilərinin çıxışlarında da qeyd olunur. Hətta Rusiyanın Baş Qərargah rəisi qeyd etdi ki, KTMT haqqında müqavilə ancaq Ermənistana aid dir. Onun Qarabağa heç bir aidiyyatı yoxdur. Yəni bununla Rusiya Ermənistana bildirdi ki, "mən əlimi çəksəm, sən əvvəlki işğalçılıq siyasətini yerində bilməyəssən və Azərbaycan öz torpaqlarını qısa müddətdə azad edəcək". Paşinyan rejimi gəldikdən sonra isə bu soyuqluq daha da artdı. Bu gün Avropa Birliyi Ermənistana yardım adı ilə pul ayırır. Amma o pulun da təyinatı tamamilə Rusiyanın əleyhinə olmalıdır. Ona görə də tez-tez səsləndirilir ki, Rusiya hərbi bazaları Ermənistandan çıxarılmalıdır. Bu mənada Rusiya rəsmiləri artıq öz hərəkətləri ilə Ermənistana mesajlar göndərirlər. Məsələn, Ermənistanda keçirilmiş parlament seçkilərindən sonra Paşinyanı təbrik etməmələri bir daha onu göstərir ki, Rusiya Ermənistanın indiki siyasətindən narazıdır. Bu narazılığın artması fonunda da Azərbaycan Rusiya, Belarusiya, Qazaxıstanla münasibətləri daha da yaxşılaşdırması onu göstərir ki, Azərbaycan KTMT-də yoxdur, amma həmin Təşkilatda olan dövlətlərin çoxu ilə dostluq əlaqələri var"-deyə, politoloq fikrini tamamlayıb.



# Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin ilk layihəsi - Yasamal Yaşayış Kompleksində mənzillərin güzəştlə satışı barədə ELAN

Bakı şəhəri, Yasamal rayonu, Xarici dairəvi yolu, 8 ünvanında yerləşən Yasamal Yaşayış Kompleksinin 1-5 saylı binaları üzrə 46 mənzil, həmçinin 6 və 7 saylı binalarında yerləşən 128 mənzilin, ümumilikdə 174 mənzilin satışı 25 yanvar 2019-cu il tarixində saat 11:00-da başlayacaq və 8 fevral 2019-cu il tarixi saat 11:00-dək davam edəcəkdir.

Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2016-cı il tarixli 1113 nömrəli Fərmanına əsasən Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzillərin əldə edilməsi "Elektron hökumət" portalı üzərindən (www.e-gov.az) "Güzəştli mənzil" sistemi vasitəsilə elektron qaydada həyata keçirilir.

Yalnız "Güzəştli mənzil" sistemində elektron kabinetə sahib olmuş vətəndaşlar mənzil almaq hüququna malikdir. Elektron kabinetə sahib olmuş bütün vətəndaşlar qeydiyyat tarixindən və sıra nömrəsindən asılı olmayaraq, mənzillərin seçimində bərabər hüquqa malikdir. Həmin şəxslər elektron kabinetlərində "Satış/Mənzillər" bölməsinə daxil olaraq "erkən gələnə erkən xidmət" prinsipi (satış başladığı anda sistemə daxil olaraq mənzili ilk seçən şəxslər onu almaq imkanı əldə edir) əsasında mənzilləri seçə biləcəklər. "Güzəştli Mənzil" sistemindən istifadə qaydası ilə bağlı ətraflı məlumatla, o cümlədən mətn və video formatlı təlimatlarla www.mida.gov.az və www.mida.az internet saytlarının ana səhifələrində "Güzəştli mənzil sistemi" keçidi vasitəsilə tanış olmaq mümkündür.

## Satışa çıxarılan mənzillər barədə ümumi məlumat:

Satışa ümumilikdə 174 mənzil çıxarılır. Bütün mənzillər tam təmirli, mətbəx mebeli, kombi isitmə sistemi (kombi cihazı daxil olmaqla), su, qaz və elektrik sayğacları ilə təmin edilmiş vəziyyətdə təklif olunur.

Bütün binalar Azərbaycan Respublikasının Dövlət Tikinti Normalarına (AzDTN) uyğun layihələndirilib və inşa olunub. Bununla bağlı Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Təsisatdankənar Dövlət Ekspertiza Baş İdarəsinin 15.11.2016-cı il tarixli 22880 nömrəli və 27.12.2016-cı il tarixli 23089 nömrəli müsbət rəyləri mövcuddur.

**Mənzillərə dair Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Bakı şəhər ərazi idarəsi tərəfindən mülkiyyət hüquqlarının qabaqcadan qeydiyyatı barədə arayışlar verilmişdir.**

| Bina № | Binanın yerləşdiyi torpaq sahəsi (m²) | Binada mərtəbə sayı | Binaya giriş sayı | Mənzillərin otaqlarının sayı | Mənzillərin sayı | Mənzillərin daxili perimetr üzrə sahəsi (m²) | Mənzillərin xarici perimetr üzrə sahəsi (m²) | Baş podratçı / ünvanı | Tikinti-quraşdırma və təmir işlərinin başaçatma tarixi |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 441,56 | 12 | 1 | 1 | 2 | 31,53 – 32,95 | 40,12 | "NN Group" MMC / Bakı şəhəri, Yasamal rayonu, Talıblı küçəsi, 27, 8-ci mərtəbə, qapı 1. | 1 sentyabr 2018-ci il |
| | | | | 2 | 3 | 56,85 – 57,87 | 70,44 | | |
| | | | | 3 | 2 | 70,09 – 70,46 | 84,47 | | |
| 2 | 645,25 | 9 | 2 | 1 | 1 | 33,10 | 40,52 | | |
| | | | | 2 | 11 | 50,12 – 55,02 | 60,10 – 66,91 | | |
| | | | | 3 | 1 | 69,43 | 84,47 | | |
| 3 | 665,45 | 9 | 2 | 1 | 2 | 33,10 | 40,52 | | |
| | | | | 2 | 6 | 54,80 – 55,03 | 66,92 | | |
| | | | | 3 | 1 | 69,92 | 81,64 | | |
| 4 | 675,52 | 9 | 2 | 1 | 3 | 33,10 – 33,37 | 40,52 | | |
| | | | | 2 | 5 | 54,80 – 55,03 | 66,92 | | |
| | | | | 3 | 1 | 69,51 | 81,64 | | |
| 5 | 676,53 | 9 | 2 | 1 | 4 | 33,10 – 33,37 | 40,52 | | |
| | | | | 2 | 3 | 54,65 – 55,03 | 66,92 | | |
| | | | | 3 | 1 | 69,56 | 81,64 | | |
| 6 | 687.45 | 9 | 2 | 1 | 16 | 33,10 – 33,37 | 40,52 | "Hünər-İnşaat" Firması / Bakı şəhəri, Xətai rayonu, Gəncə prospekti, ev 97, mənzil 63. | 1 sentyabr 2018-ci il |
| | | | | 2 | 32 | 54,65 - 55,03 | 66,92 | | |
| | | | | 3 | 16 | 69,51 - 69,93 | 81,64 | | |
| 7 | 665.36 | 9 | 2 | 1 | 16 | 33,10 – 33,37 | 40,52 | | |
| | | | | 2 | 32 | 54,65 - 55,03 | 66,92 | | |
| | | | | 3 | 16 | 69,51 - 69,93 | 81,64 | | |

## Satış şərtləri və qiymətlər:

Azərbaycan Respublikası Prezidentinin 16.11.2016-cı il tarixli 1113 nömrəli Fərmanı ilə təsdiq edilmiş Qaydanın 1.2.10-cu yarımbəndi və 3.2-ci bəndinə əsasən vətəndaşlara güzəştli şərtlərlə təklif olunan mənzillərin satış qiyməti Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu tərəfindən təyin edilmiş orta bazar qiymətindən aşağı müəyyən olunmuşdur.

1 otaqlı mənzillərin qiyməti – **29 954** manatdan,
2 otaqlı mənzillərin qiyməti – **47 614** manatdan,
3 otaqlı mənzillərin qiyməti – **65 959** manatdan başlayır.

***Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.***

Vətəndaş mənzili Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun güzəştli ipoteka krediti vəsaiti hesabına aldıqda:

| İllik faiz dərəcəsi | Müddət | Minimal ilkin ödəniş | Aylıq ödəniş* | | |
|---|---|---|---|---|---|
| | | | *1 otaqlı* | *2 otaqlı* | *3 otaqlı* |
| 4% | 3-30 il | 10% | **129-136 manat** | **205-236 manat** | **283-288 manat** |

* Aylıq ödəniş – mənzil 10% ilkin ödəniş edilərək, 4% dərəcəsi ilə 30 il müddətinə güzəştli ipoteka krediti ilə alındıqda.

**DİQQƏT! Mənzilə güzəştli ipoteka krediti vasitəsilə sahib olmaq istəyən vətəndaş minimal ilkin ödənişdən artıq ödənilən məbləğə görə, mənzilin satış qiymətini tam həcmdə öz vəsaiti hesabına birdəfəlik ödəyən vətəndaş isə bütün məbləğə əlavə 10% endirim əldə edəcək.**

**Mənzilə öz vəsaiti hesabına birdəfəlik ödəniş edərək sahib olmaq istəyən vətəndaş üçün mənzillərin satışı aşağıdakı qiymətlərdən başlayır:**

| Otaqların sayı | Mənzilin qiyməti (manat) | Əlavə endirim məbləği (manat) | Əlavə endirimdən sonra mənzilin satış qiyməti (manat) |
|---|---|---|---|
| 1 | 29 954 | **2 995** | **26 959** |
| 2 | 47 614 | **4 761** | **42 853** |
| 3 | 65 959 | **6 596** | **59 363** |

***Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.***

Yasamal Yaşayış Kompleksinin **www.yasamal.mida.az** internet səhifəsinə daxil olaraq satışa çıxarılan hər bir mənzilin (və otaqlarının) dəqiq ölçüsü, qiyməti, tətbiq edilən güzəştlər və əlavə endirimlər, agent banklar haqqında məlumatla tanış olmaq, habelə ipoteka və güzəştli mənzil kalkulyatorları vasitəsilə müvafiq hesablamalar aparmaq mümkündür.

Güzəştlə mənzil əldə etmək hüququ olan şəxslər, mənzili güzəştlə əldə etmək üçün ərizənin təqdim olunması qaydası, mənzillərin satış şərtləri, agent banklar barədə ətraflı məlumatla **www.mida.gov.az** və **www.mida.az** internet səhifələrində və ya müvafiq "ASAN xidmət" mərkəzlərinə (1, 3, 5 saylı və Sumqayıt), habelə "108" çağrı mərkəzinə müraciət edərək tanış olmaq mümkündür.

***Qeyd: "Güzəştli mənzil" sisteminin istifadəçiləri satış modulunun yenilənmiş təlimatı ilə öz elektron kabinetlərinin müvafiq bölməsində və ya www.mida.gov.az və www.mida.az internet saytlarının ana səhifələrində "Güzəştli mənzil sistemi" keçidi vasitəsilə tanış ola bilərlər.***

# Erməni tikəsinə "yağ sürtənlər" hansı əməllərinə görə cavab verəcəklər?

## *Yaxud faktlar, dəlillər, sübutlar ortadadır...*

***İstər ölkə daxilində, istərsə də xaricdə Azərbaycan dövlətinin maraqlarına qarşı çıxan və bununla, bir sıra xarici təşkilatlara agentlik edənlərin arxasında dayanan daha bir siyasi "gücün" erməni lobbisi olması kimsəyə sirr deyil. Ümumiyyətlə, bu barədə danışarkən, başda AXCP sədri Əli Kərimli olmaqla, onun Avropaya göndərdiyi "siyasi mühacirləri", daha dəqiq desək, "söyüş müxalifəti" dərhal Azərbaycan hakimiyyətinin onlar barədə "sözünün qurtardığını", bu səbəbdən də, fəaliyyətlərini erməni lobbisinə "bağladığını" iddia edirlər.***



Halbuki istər bu gün, istərsə də daha öncələr Ermənistan KİV-ləri dəfələrlə bu xəyanətkarların Azərbaycan dövləti əleyhinə apardıqları işlərini öz səhifələrində tirajlayıblar. Yəni fakt budur ki, bu gün ermənilərin anti-Azərbaycan fəaliyyətlərinin əsas dəstəkçilərindən biri də satqın, xəyanətkar və heç bir mənəvi dəyərlərə sahib olmayan, eləcə də, müxalifətçilik adını belə daşımağa layiq olmayan dırnaqarası "müxalifətdir".

**Azərbaycanda görülən işləri və nailiyyətlərimizi gözdən salmaq, bizi hər addımda izləyən ermənilərə yarınmaq üçün, demək olar ki, gündəlik məlumat ötürürlər**

Bu gün Almaniyanın, Hollandiyanın, Fransanın, Belçikanın küçələrində, sözün əsl mənasında, sülənən "söyüş müxalifəti" aldığı sifarişlər əsasında ən alçaq üsullara belə gedərək, nə qədər şərəf və ləyaqət məfhumlarından uzaq olduqlarını nümayiş etdirirlər. Məhz bu baxımdan, onların ermənilərə işlədiklərini sübut etmək olar. Beləliklə, fakt budur ki, onlar Azərbaycanda görülən işləri və nailiyyətlərimizi gözdən salmaq, bizi hər addımda izləyən ermənilərə yarınmaq üçün, demək olar ki, gündəlik məlumat ötürürlər. Bunun isə, əvəzində, bilavasitə erməni lobbisinin nəzarətində olan xarici təşkilatlardan qrantlar qazanırlar. Bu sıralamada Ə.Kərimli ilə yanaşı, Aslan İsmayılov, Xədicə İsmayıl, Orduxan Teymurxan, Tural Sadıqlı, Məhəmməd Mirzəli, Leyla Yunus, Arif Yunus, Sevinc Osmanqızı, Emin Milli, Emin Hüseynov, Həbib Müntəzir, Vidadi İsgəndərli və digər mənəviyyatsız, erməni tikəsinə "yağ sürtən" ünsürlərin adlarını sadalamaq mümkündür.

**Bu kimi məxluqatlar gec, ya da tez öz çirkin əməllərinə görə, məhz Azərbaycan xalqının qarşısında mütləq cavab verməli olacaqlar**

Sözügedən faktları təqdim etməkdə əsas məqsədlərdən biri də budur ki, siyasi bilgiləri olmayan, yaxud yetərli qədər olmayan gənclər belə anti-milli ünsürlərin haray-şivənlərinə uymasınlar, əksinə, Azərbaycan dövlətinin maraqlarını qoruyaraq, onlara qarşı vahid şəkildə birləşib, mübarizə aparsınlar. Çünki bu gün düşmən erməniyə "kompromat-lar" ötürənlər sabah daha ağır xəyanətlər edərək, dövlətimizin maraqlarına xələl vura bilərlər. Eyni zamanda, hər kəs bilməli və anlamalıdır ki, bu kimi məxluqatlar gec, ya da tez öz çirkin əməllərinə görə, məhz Azərbaycan xalqının qarşısında mütləq cavab verməli olacaqlar. Buna isə, kimsənin şübhəsi olmamalıdır!

*Rövşən NURƏDDİNOĞLU*



# "Kaspşik Paşinyanın xarici işlər nazirinin funksiyasını yerinə yetirdi"

"ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşik Yerevanda Ermənistanın baş naziri Nikol Paşinyanla görüşdə Dağlıq Qarabağ münaqişəsini dinc yolla tənzimlənməsindəki danışıqlar prosesinə aid məsələləri müzakirə edib. Münaqişə tarixində ilk dəfədir ki, ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Ermənistanın rəhbəri ilə ayrıca və rəsmi görüş keçirir. R.Köçəryanın və S.Sərkisyanın prezidentliyi dövründə belə görüşlər olmamışdı". Bunu SİA-ya açıqlamasında politoloq Mübariz Əhmədoğlu deyib.

Plitoloq bildirib ki, Dağlıq Qarabağ münaqişəsi regionunda A.Kaspşikin görüşlər keçirməsi mandatında nəzərdə tutulub: "Kaspşik qoşunların təmas xəttində monitorinq keçirərkən Dağlıq Qarabağın "de-fakto" rəhbərləri ilə görüşdüyü kimi Azərbaycan tərəfində müvafiq rayon (tutaq ki, Bərdə) İcra Hakimiyyətinin başçısı ilə də görüşlər keçirib. Kaspşikin fəaliyyətinin vacib cəhətlərindən biri onun həm siyasi, həm də hərbi prosesləri əlaqələndirən şəxs olmasıdır. Kaspşikin Paşinyanla görüşü ilə əlaqəli daha bir məsələni xüsusilə qeyd etməyi vacib hesab edirəm: Kaspşik açıq şəkildə bildirdi ki Dağlıq Qarabağ ermənilərinin danışıqlarda iştirakına əsas yaradan heç bir sənəd imzalanmayıb. Kaspşikin Paşinyanla görüşdə məqsədi ATƏT-in MQ həmsədrlərinin Milan görüşünün nəticələrini ona çatdırmaq idi".

M.Əhmədoğlu qeyd edib ki, Ermənistanın xarici işlər naziri Zöhrab Mnasakanyan Azərbaycanın xarici işlər naziri E.Məmmədyarovla Milanda əldə etdiyi razılaşmaların mahiyyətini və detallarını Paşinyana çatdıra bilmir: "Milanda 3 saat davam edən görüşdə kifayət qədər ciddi detallı müzakirə baş tutub. Dağlıq Qarabağ münaqişəsinin mərhələli həll variantı üzrə sənəd demək olar ki, hazır vəziyyətdədir və bu da Paşinyan üçün sirr deyil. Çünki Paşinyan özü etiraf etmişdi ki, köhnə hökumətdən ona miras qalan sənədə görə Dağlıq Qarabağ ətrafındakı bəlli ərazilər Azərbaycana qaytarılır. Əvəzində Ermənistanla Azərbaycan arasında kommunikasiyalar açılır. Dağlıq Qarabağın statusu ilə bağlı heç bir şey yoxdur. Qarşıdan N.Paşinyanın Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə görüşü hazırlanır.

Mnasakanyan bu fikirləri Paşinyana çatdıra bilməz. Çünki Paşinyanın verdiyi bəyanatlardan da anlaşılır ki, Paşinyanın ətrafında heç kəs ona düz söz deyə bilmir. Telemarafonda yığılan pulla bağlı marafonun səhəri günü Paşinyana verilən sual və Paşinyanın verdiyi cavab hər şeyi aydın göstərir. Ona görə Kaspşik Paşinyanın təyin etdiyi Xİ naziri Z.Mnasakanyanın funksiyasının bir qismini yerinə yetirdi. Yerevana gələrək Milan görüşündə olan detalları, eləcə də Ermənistan və Azərbaycan rəhbərlərinin görüşü üçün hazırlanan protokolu Paşinyana izah etdi".

# Gələn ildən Gəncə avtomobil zavodunda elektrobuslar istehsal olunacaq

Gələn ildən Gəncə avtomobil zavodunda Belarusun texnika istehsalı üzrə aparıcı müəssisələri ilə birlikdə elektrobusların istehsalı planlaşdırılır. İstehsala başlamazdan əvvəl Gəncədə belaruslu mütəxəssislərin iştirakı ilə monitorinqlər keçiriləcək və şəhərdə hansı tutumlu elektrobuslara ehtiyac olduğu müəyyənləşdiriləcək. Bundan sonra tutumundan asılı olaraq kiçik və böyük qabaritli elektrobuslar istehsal olunacaq. Elektrobuslar istifadəyə verilməzdən əvvəl şəhərin müxtəlif ərazilərində enerji doldurma stansiyaları quraşdırılacaq.



AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu barədə Belarusun ölkəmizdəki səfiri Gennadi Axramoviç ilə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramovun görüşündə məlumat verilib. Şəhər icra hakimiyyətində keçirilən görüşdə Azərbaycan ilə Belarus arasındakı əlaqələrdən söz açılıb və müxtəlif sahələri əhatə edən əməkdaşlığın genişləndirilməsinin vacibliyi vurğulanıb.



# Özgə yalı ilə bəslənilən Xədicə

RƏFİQƏ

***Bəlkə səhv deyirəm? Anadan olduğu gündən, bəlkə də özgə yalı ilə bəslənilib, bu "ərköyün" Xədicə. Harda bir deşik görüb, özünü ora soxub. Ona-buna agentlik edib, satıb-satılaraq, olub "tədqiqatçı jurnalist", həm də "hüquq müdafiəçisi". Axırda "millət dərdinə yananlar" fəsiləsinin nümayəndəsi olan X.İsmayıl bu yaxınlarda Qərb təşkilatlarından növbəti 500 min avro qrant alıb. Özü də bu məbləği topdan deyil, pərakəndə şəkildə əldə edib.***

Və bildirilib ki, vəsait topdan göndərilərsə, dərhal diqqətləri cəlb edə bilər. Görünür, erməni qulbeçəsi X.İsmayılın "dərdinə" qalanlar, hətta bu vəsaitləri onun yaxın tanışının hesabına köçürür və pullar da oradan nağdlaşdırılır. İş bununla bitmir. Ayrılan qrantları milli, dini qruplar, seksual azlıqlar, gənclər, habelə, tələbələr arasında sosioloji araşdırmalar aparmaq, ölkədə müxtəlif sosial qruplar arasından - dini icmalarda, seksual azlıqla qruplarında narazıları aşkarlayıb, səfərbər etmək kimi işlərə də sərf etmək planını da yazıb göndəriblər.

"İştah diş altındadır" deyiblər. Pul iyini alar-almaz, qrant məsələsi ildırım sürəti ilə düşərgə daxilində, eləcə də, Avropadakı qruplar arasında çaxnaşma yaradıb. Daha dəqiq desək, X.İsmayılın yarım milyon avroluq qrantın bölüşdürülməsini təkbaşına həyata keçirməsi qarşı tərəfləri qıcıqlandırıb. Ancaq fakt budur ki, xarici dairələr bu dəfə X.İsmayılın üzərində dayanmaqla, digərlərinə etimad göstərmədiklərini bildiriblər. Bax, budur, X.İsmayılın erməniçiliyi.

İndi düşərgədə və bəzi müxalif jurnalistlər arasında "sərin küləklər" əsməkdədir. X.İsmayıl xaricdə bağlı olduğu şəxslərə müxtəlif əqidə yoldaşlarından donos göndərir. Bəzi hallarda isə müxalif jurnalistləri, QHT sektorunda olan müxalif şəxsləri xaricdəki havadarlarına yazacağı ilə hədələyərək, onların imzalarından da faydalanır.

Jurnalist Hafiz Babalı X.İsmayıla ard-arda "mükafat"ların verilməsinə etiraz edərək, bildirib ki, X.İsmayıl özünü korrupsiya ilə məşğul olmaqla yanaşı, erməni xisləti ilə jurnalistika qarşısında bir çəpərdir: "Sən jurnalist yox, korrupsioner, satqın və erməniyə nökərçilik edən satqınsan. Reallıq budur".

Ancaq X.İsmayıl kimilər bir reallığı da unudur ki, özgə yalı ilə bəslənilməklə, heç nəyə nail ola bilməyəcəklər. Bələləri bilməlidirlər ki, Vətənin halal çörəyinə kəm baxıb, özgənin, həm də düşmənin yalı ilə bəslənənləri tarix heç vaxt bağışlamır. Çünki onun qatarı çoxdan gedib...

# Avropa Konvensiyasının qəbul edilməsinin insan haqlarının müdafiəsində rolu

***Avropa Konvensiyasının qəbul edilməsi fərdin beynəlxalq hüququn sui-generis subyektinə çevrilməsində mühüm mərhələ oldu. Məhz buna görə də, Konvensiyanı öz əhəmiyyətinə görə analoqu olmayan beynəlxalq müqavilə adlandırmaq olar. Beləliklə, Avropa Məhkəməsinin təcrübəsi və fəaliyyəti AİHK-nin bu sahədə ən səmərəli beynəlxalq-hüquqi akt olduğunu, AİHM-in isə insan hüquqlarının müdafiəsi sahəsində ən səmərəli beynəlxalq mexanizm olmasını deməyə əsas verir.***

Bu gün AİHK və AİHM-nin presedent hüququ formalaşmaqda olan AŞ hüququnun ən mühüm mənbəyi kimi çıxış edir.

Zaur Əliyev yazır: "AİHM-in yurisdiksiyasının digər universal və regional beynəlxalq hüquq-müdafiə mexanizmlərinin yurisdiksiyası ilə müqayisəli təhlilinin nəticələrinə dair aşağıdakıları qeyd etmək olar:

AİHM-dən fərqli olaraq, BMT çərçivəsində fəaliyyət göstərən müqavilə qurumlarına (komitələrə müraciət etmək üçün müvafiq dövlətdaxili orqanın qəti qərarından sonra vaxt məhdudiyyəti yoxdur. İstisna yalnız İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Pakta dair Fakultativ Protokol təşkil edir. Protokolun 3-cü maddəsinə əsasən, şikayət komitəyə bütün dövlətdaxili mexanizmlər tükəndikdən sonra bir il ərzində verilə bilər;

BMT müqavilələrində komitələrə müraciətin əsas şərtlərindən biri olaraq, AİHK-da olduğu kimi, bütün dövlətdaxili hüquq-müdafiə mexanizmlərinin tükəndirilməsi göstərilir. Eyni zamanda, bunun ardınca, qeyd olunur ki, bu qayda belə vasitələrin tətbiqinin həddindən artıq ləngidilməsi halında tətbiq olunmur;

Avropa Məhkəməsindən fərqli olaraq, komitələrə hüquq pozuntusu ilə bağlı üçüncü şəxslər də müraciət edə bilər. Məsələn, Əlillərin Hüquqları haqqında Konvensiyaya dair Fakultativ Protokola əsasən, Əlillərin hüquqları üzrə Komitə Konvensiyanın müddəalarının müvafiq iştirakçı- dövlət tərəfindən pozulmasının qurbanı olduğunu iddia edən və onun yurisdiksiyası altında olan şəxslərdən və ya şəxslər qrupundan yaxud onların adından məlumatları qəbul etmək və baxmaq səlahiyyətinə malikdir; Müqavilə qurumlarının yaradılmasını nəzərdə tutan BMT Konvensiyalarından fərqli olaraq, AİHK-a əsasən, fərdi və dövlətlərarası şikayət proseduru məcburi xarakter daşıyır. Yəni Konvensiyanın iştirakçısı olan dövlət, avtomatik olaraq, məhkəmənin bu səlahiyyətini tanıyır. Dövlətlərarası şikayət prosedurundan mühüm fərq ondan ibarətdir ki, komitələrdən fərqli olaraq, AİHK-nın iştirakçı-dövləti digər müvafiq iştirakçı-dövləti xəbərdar etmədən və onun mülahizələrini öyrənmədən dövlətlərarası şikayətlə məhkəməyə müraciət edə bilər; Komitələrin əsas səlahiyyətlərindən biri iştirakçı - dövlətlərin müvafiq beynəlxalq müqavilədən irəli gələn öhdəliklərin yerinə yetirilməsi ilə bağlı dövri məruzələrinə baxmaqdan ibarətdir. AİHK isə, ümumiyyətlə, "dövri məruzə" proseduru nəzərdə tutmur;

AİHM ilə komitələr arasında ən mühüm fərq isə onların qərarlarının hüquqi qüvvəsindədir. Komitələrin qərarları, bir qayda olaraq, hüquqi cəhətdən məcburi olmur və bu qərarların icrası üzərində nəzarət mexanizmi mövcud deyildir. Komitələrdən fərqli olaraq, AİHK-ya əsasən, iştirakçı-dövlətlər məhkəmənin qərarlarını icra etməyi öhdələrinə götürmüşlər. Bundan başqa bu qərarların icrası üzərində effektiv nəzarət sistemi mövcuddur;

AİHM - beynəlxalq səviyyədə ədalət mühakiməsini həyata keçirən və məhkəmə orqanının bütün əsas atributlarına malik olan, ədalət mühakiməsinin əsas prinsiplərini (tərəflərin bərabərliyi, çəkişmə prinsipi və s.) rəhbər tutan ixtisaslaşdırılmış beynəlxalq məhkəmə orqanıdır. BMT-nin müvafiq komitələri isə məhkəmə orqanı deyil, tövsiyə xarakterli qərarlar qəbul edən kvazimhkəmə orqanlarıdır;

Amerika İnsan Hüquqları Konvensiyasına əsasən, dövlətlərarası şikayət proseduru AİHK-dan fərqli olaraq, fakultativ xarakter daşıyır. Belə ki, Amerika Konvensiyasının 45-ci maddəsinə əsasən, Amerikaarası İnsan Hüquqları Komissiyasının dövlətlərarası şikayətlərə baxa bilməsi üçün dövlətlərin xüsusi bəyanatı tələb olunur. Pozuntu aşkar etdikdə belə, komissiyanın səlahiyyətində müvafiq dövlətə qarşı effektiv təsir mexanizmi yoxdur."

Z.Əliyevin fikrincə, Amerika Məhkəməsinin AİHM-dən mühüm fərqlərindən biri ondan ibarətdir ki, fərd birbaşa Amerika Məhkəməsinə müraciət edə bilməz. Amerika Konvensiyasının 61-ci maddəsinə əsasən, yalnız mübahisənin tərəfi olan dövlət və komissiya məhkəməyə müraciət edə bilər. AİHM-də olduğu kimi, Amerika Məhkəməsinin də qərarları iştirakçı-dövlətlər üçün məcburi xarakter daşıyır. Lakin AİHM-dən fərqli olaraq, Amerika Konvensiyası qərarların icrası üzərində nəzarət mexanizmi nəzərdə tutmamışdır. Lakin bununla yanaşı, Amerika Məhkəməsinin AİHM-dən üstünlüyü məsləhət rəyləri ilə bağlıdır. Belə ki, AİHK-ya əsasən, iştirakçı dövlətlər Avropa Məhkəməsinə məsləhət rəyləri verilməsi ilə bağlı müraciət edə bilməzlər. Bu hüquqa yalnız AŞNK malikdir. Amerika Konvensiyası isə iştirakçı-dövlətlərin məsləhət rəyləri ilə bağlı məhkəməyə müraciət hüququnu nəzərdə tutur. AİHM-dən fərqli olaraq, Amerika Məhkəməsi maliyyələşdiyi regional təşkilat, yəni ADT qarşısında hesabatlıdır. Yəni Məhkəmə ADT-nın Baş Assambleyasına illik hesabatlar təqdim edir;

Afrika Komissiyası fərdi şikayətlərə baxsa da, AİHM-dən fərqli olaraq məcburi qərarlar qəbul etmək və delikvent-dövlətin üzərinə yerinə yetirilməsi mütləq olan tələblər qoymaq səlahiyyətinə malik deyil;

AİHM-dən fərqli olaraq, Afrika Məhkəməsi daimi əsasda fəaliyyət göstərmir. AİHM ilə Afrika Məhkəməsi arasında mühüm fərqlərdən biri ondan ibarətdir ki, Afrika Məhkəməsində fərdi şikayət proseduru fakultativ xarakter daşıyır.

Ümumilikdə, AİHM-nin yurisdiksiyasının digər universal və regional beynəlxalq hüquq-müdafiə mexanizmlərinin yurisdiksiyası ilə müqayisəli təhlilinə yekun vuraraq, qeyd etmək olar ki, insan hüquqlarının beynəlxalq hüquqi müdafiəsinin universal, əsasən də, regional mexanizmləri əsas etibarilə AİHK-nin təsiri altında formalaşmış və bu Konvensiya və AİHM-in presedent hüququ əsasında inkişaf edir. Müqayisəli təhlildən və nəticələrdən də, göründüyü kimi, AİHM-in bu gün istər universal, istərsə də regional mexanizmlər sırasında ən səmərəli beynəlxalq hüquq-müdafiə mexanizmi adlandırmaq olar.

AİHM-in predmet, şəxslərə görə, zamana görə, ərazi və məsləhət rəyləri verilməsi ilə bağlı yurisdiksiyası ilə əlaqədar deyilənləri ümumiləşdirərək aşağıdakıları qeyd etmək olar:

AİHM yalnız Konvensiya və əlavə Protokollarda nəzərdə tutulan hüquq və azadlıqların pozulması ilə bağlı işlərə baxmaq səlahiyyətinə malikdir. Məhkəmənin predmet yurisdiksiyasına yalnız Konvensiyanın və əlavə Protokolların konkret normalarında ifadə olunan hüquq və azadlıqlar deyil, eyni zamanda, məhkəmənin şərh etdiyi qaydada Konvensiya və ya əlavə Protokollarda birbaşa nəzərdə tutulmasa da, onların məzmunundan irəli gələn hüquqlar da daxildir. Məhkəmənin presedent hüququ, onu deməyə əsas verir ki, bir sıra hallarda məhkəmə hər hansı bir hüququn Konvensiyada və ya əlavə Protokolda nəzərdə tutulmamasına baxmayaraq, bu hüququ digər oxşar hüququn tərkib hissəsi sayaraq, onu özünün predmet yurisdiksiyasına daxil edir. Bu isə, bir daha təsdiq edir ki, milli məhkəmə orqanları Avropa Konvensiyasını tətbiq edərkən Avropa Məhkəməsinin presedentlərini nəzərə almalı və Konvensiyanı məhkəmənin qərarlarına uyğunlaşdırılmış şəkildə tətbiq etməlidirlər. Yəni Konvensiya AİHM-in şərh etdiyi qaydada tətbiq olunmalıdır.

Məhkəməyə yalnız ayrı-ayrı fərdlər deyil, həmçinin, şəxslər qrupu və qeyri-hökumət təşkilatları da müraciət edə bilər. Məhkəməyə müraciət edə biləcək fərdlərin dairəsi genişdir. Bu qisimdə hüquq va ya fəaliyyət qabiliyyəti olmayanlar, azyaşlılar, ahıllar, hərbi qulluqçular, məhkumlar, iştirakçı-dövlətin vətəndaşı olmayan, lakin onun yurisdiksiyası altında olan şəxslər çıxış edə bilərlər. Şikayət şəxslər qrupu tərəfindən veriləndə belə, onların hər biri şəxsi ziyanın vurulmasını göstərməlidirlər. Məhkəmə abstrakt, hipotetik şikayətlərə baxmır. Qeyri-hökumət təşkilatlarına gəlincə isə, məhkəmə təcrübəsi bu siyahıya ictimai təşkilatları, hüquqi şəxsləri, həmkarlar ittifaqlarını, kütləvi informasiya vasitələrini, siyasi partiyaları, şirkətləri, aksioner birliklərini və dini birlikləri aid etməyə imkan verir. Dövlət təşkilatları və digər hakimiyyət funksiyalarını həyata keçirən orqanlar bu qrupa aid edilmir.

Beləliklə, Avropa Məhkəməsinə ayrı-ayrı fərdlər, fərdlər qrupu və ya qeyri-hökumət təşkilatları müraciət edə bilər. Hakimiyyətin istənilən qolunu (icra, qanunverici, məhkəmə) təmsil edən dövlət orqanları, yerili özünüidarəetmə orqanları, dövlət ali təhsil müəssisələri, dövlət şirkətləri, ümumilikdə, bu və ya digər şəkildə hakimiyyət funksiyalarını həyata keçirən təşkilatlar Konvensiyanın 34-cü maddəsinə müvafiq olaraq, Avropa Məhkəməsinə müraciət etmək hüququna malik deyillər;

Məhkəmə təcrübəsində "qurban" anlayışı geniş mənada qəbul edilir. Bunun da nəticəsində məhkəmə təcrübəsində "bilavasitə qurban" anlayışından başqa, "potensial qurban" və "dolayı qurban" anlayışları fərqləndirilir. "Potensial qurban" anlayışı ilə bağlı olan halda, məhkəmə müəyyən edir ki, gələcəkdə vurula bilən və real olan ziyanın təhlükəsi olduğu halda belə, iddiaçıya qurban kimi baxmaq olar. "Dolayı qurban" anlayışına gəlincə isə, bu qisimdə Konvensiyanın 2-ci maddəsinin pozulması ilə əlaqədar şəxsin həlak olduğu, zorakı yoxa çıxarıldığı halda, yaxud Məhkəməyə müraciət etdikdən sonra ərizəçinin vəfatı ilə əlaqədar onun yaxın qohumları və ya birbaşa "qurban"la digər yaxın əlaqələri olan şəxslər çıxış edə bilər;

Avropa Konvensiyası, onun qüvvəyə minməsinə qədər baş verən hadisə və faktlara şamil edilmir. Məhkəmə müvafiq cavabdeh-dövlətin Konvensiyanı ratifikasiya etməsinə qədər, həmçinin, əgər şikayətə bu tarixə qədər müvafiq dövlətdaxili orqanlarda baxılıb və qərar çıxarılıbsa, baş verən hadisələrlə bağlı şikayətlərə baxa bilməz. Bu şərtin tətbiq olunub-olunmaması üçün, müvafiq hüquqpozmanın baş verdiyi tarix deyil, bununla bağlı müvafiq dövlətdaxili orqanın son, qəti qərarının çıxarıldığı tarix əsas götürülür.

Avropa Məhkəməsinin zamana görə yurisdiksiyası (ratione temporis) kontekstində, qeyd etmək olar ki, Ermənistandan deportasiya olunmuş və Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğalı nəticəsində, bir çox hüquqları pozulmuş, əsasən də, Konvensiyaya əlavə 1 saylı Protokolun 1-ci maddəsinin pozulması ilə əlaqədar minlərlə soydaşımız işğalçı Ermənistana qarşı bu dövlətin də Avropa Konvensiyasına qoşulmasını nəzərə alaraq, Avropa Məhkəməsinə müraciət edə bilərlər. Bu halda, Ermənistanın AİHK-nı ratifikasiya etməzdən və AİHM-in yurisdiksiyasını tanımazdan əvvəl baş verən, lakin bugünədək davam edən uzanan hüquq pozuntusu vardır. Beləliklə, məhkəmənin zamana görə, yurisdiksiyası baxımından işğal nəticəsində Konvensiya müddəalarının pozulması ilə bağlı Ermənistana qarşı işlərə baxılmasına hüquqi maneə yoxdur.

***VAHİD ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 22 dekabr


## Regionlarda mobil internetdən istifadə sürətlə artır

“Hazırda ölkədə ev interneti 56 faiz, ictimai wifi 21 faiz, mobil internet isə 55 faiz təşkil edir” Dünən Şəkidə Bakcell tərəfindən “Mobil telekomunikasiyaya giriş” mövzusunda seminar təşkil edilib. SIA xəbər verir ki, seminarı Bakcell şirkəti, Məhsulların idarə edilməsi departamentinin rəhbəri Cəlil Xəlilov aparıb. O bildirib ki, dünyada internet istifadəçiləri sürətlə artmaqdadır, buna texnologiyanın sürətli inkişafı da təkan verir: “İnternet istifadəçiləri arasında mobil internet istifadəçilərinin sayında da artım müşahidə edilməkdədir. Azərbaycanda internet istifadəsi əhalinin 78 faizini təşkil edir. Hazırda ölkədə ev interneti 56 faiz, ictimai wifi 21 faiz, mobil internet isə 55 faiz təşkil edir. Göründüyü kimi, mobil internet istifadəçilərinin yarıdan çoxu mobil internetdən bəhrələnir”.



Cəlil Xəlilovun sözlərinə görə mobil əlavələrdən istifadə vərdişi gündən-günə çoxalır: “Mobil internetə maraq və asılılıq regionlarda əhəmiyyətli şəkildə artmaqdadır. Mobil internetdən ən çox video-musiqi məzmununun striminqi, meesengerlər, sosial şəbəkələrlə işləmək üçün istifadə olunur. Ümumilikdə sosial şəbəkələrdən istifadə zamanı audio/video məzmunlar üstünlük təşkil edir. İstifadəçilər daha çox WhatsApp, YouTube, Instagram, Facebook, oyunlar, email/-Gmail-dən istifadə edirlər. Azərbaycanda mobil internet vasitəsilə daha çox Youtube və Google, daha sonra Facebookdan istifadə olunur”.

O, bildirib ki, növbəti illərdə mobil interdən istifadədən həcmi daha yüksək olacaq. Bunun bir səbəbi də quruluş və istismar xərclərinin az olmasıdır. Cəlil Xəlilov daha sonra “Bakcell wifi evinizdə”, sabit xəttin əvəzləyici gücünə malik cihazı təqdim edib: “Bu cihazın üstünlükləri ondan ibarətdir ki, yüksək internetlə təmin etməklə yanaşı, daşına biləndir. Biz Bakcell olaraq düşünürük, ki, bu tipli cihazların istifadəsini gələcəkdə daha da artıraq”. Qeyd edək ki, Bakcell-in təşkil etdiyi “Mobil telekomunikasiyaya giriş” mövzusunda seminarları 21-22 tarixlərində iki gün davam edəcək.

## ELAN

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Riyaziyyat və informatika müəllimliyi ixtisası üzrə I kurs tələbəsi Kərimli Həmidə Qaçay qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

**X X X**

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin İnformatika müəllimliyi ixtisası üzrə I kurs tələbəsi Əhmədova Leyla Faris qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

**X X X**

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Məktəbəqədər təhsil ixtisasının 180 3/B qrup tələbəsi Zeynalova Zeynəb Cilovxan qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

**X X X**

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Fiziki tərbiyə və ÇH ixtisası üzrə IV kurs tələbəsi Qarayev Şamil Nəsib oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

**X X X**

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Menecment ixtisası üzrə II kurs magistri Məmmədli Jalə Samir qızının adına verilmiş magistr bileti itdiyi üçün etibarsız sayılır.**

**X X X**

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Riyaziyyat və informatika müəllimliyi ixtisası üzrə II kurs tələbəsi İsmayılova Sevinc Cəmil qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

**X X X**

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Biologiya müəllimliyi ixtisası üzrə IV kurs tələbəsi İbrahimli Xəyalə Zahid qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

**Azərbaycan Dövlət İqtisad Universitetinin Biznes və menecment fakültəsinin Biznesin təşkili və idarəolunması ixtisası üzrə təhsil alan tələbəsi Şibilov Elvin Qəhrəman oğluna məxsus tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

## Argentinalı məşhur futbolçu Ernan Krespo Bakıya gələcək




Gələn il mayın 29-da Bakı Olimpiya Stadionunda keçiriləcək UEFA Avropa Liqasının final oyununa hazırlıq kampaniyası çərçivəsində argentinalı sabiq futbolçu, dünya şöhrətli hücumçu Ernan Krespo UEFA-nın ulduz səfiri qismində dekabrın 23-də Azərbaycan paytaxtına gələcək. AZƏRTAC xəbər verir ki, həmin gün saat 12-dən 13-dək UEFA Avropa Liqasına həsr olunmuş muzeydə “İnter” komandasının heyətində üç dəfə İtaliya çempionu olmuş E.Kresponun imza günü təşkil ediləcək.

Muzeyin ziyarətçiləri imza günündə sabiq hücumçu ilə yaxından tanış ola, ondan imza ala, eləcə də foto çəkdirə biləcəklər. Saat 13:00-da isə muzeydə E.Kresponun mətbuat nümayəndələri üçün brifinqi keçiriləcək.

E.Krespo İtaliyanın “Parma” klubunun heyətində UEFA Kubokunun 1998-1999-cu il mövsümünün qalibi olub. Onun adı 2004-cü ildə FIFA-nın 100 illik yubileyi münasibətilə Pele tərəfindən tərtib edilmiş yaşayan 125 ən yaxşı futbolçunun siyahısında yer alıb. Ötən il sentyabrın 20-də UEFA İcraiyyə Komitəsi 2019-cu ildə futbol üzrə UEFA Avropa Liqasının final oyununun Bakı Olimpiya Stadionunda (BOS) keçirilməsi haqqında qərar qəbul edib.

## Qətərdə keçirilən ağır atletika üzrə beynəlxalq turnirdə idmançımız bürünc medal qazanıb




Dekabrın 21-də Qətərin paytaxtı Dohada keçirilən ağır atletika üzrə 5-ci Beynəlxalq Qətər kuboku turnirində idmançımız Səbinə Əzimova bürünc medal qazanıb. AZƏRTAC xəbər verir ki, S.Əzimova 55 kiloqram çəki dərəcəsində qüvvəsini sınayıb. Atletimiz birdən qaldırma hərəkətində 74 kiloqramı, təkanla qaldırma hərəkətində isə 92 kiloqramı ram edib. Ümumi 166 kiloqram (74+92) nəticə ilə Səbinə Əzimova bürünc medala sahib çıxıb. Qeyd edək ki, Səbinə Əzimovadan əlavə, Boyanka Kostova da körpücük üzərinə çıxacaq. Turnir “Tokio 2020” Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyır.

## “Barselona” Ceyson Murillonu icarəyə götürüb



“Barselona” klubu “Valensiya”nın müdafiəçisi Ceyson Murillonu cari mövsümün sonunadək icarəyə götürüb. Klubun rəsmi saytında yer alan məlumata görə, futbolçu dekabrın 27-də ictimaiyyətə təqdim olunacaq.

Cari mövsümün sonunda “Barselona” müdafiəçini transfer edərsə, “Valensiya”ya 25 milyon avro ödəyəcək. 1992-ci ildə Kolumbiyada dünyaya gələn Ceyson Murillo Avropada ilk olaraq İtaliyanın “Udineze” klubu ilə müqavilə bağlayıb və sonradan “Qranada”ya icarəyə verilib. Avropanın bir çox klublarının heyətində yer almış Murillo 2017-ci ilin avqustunda “Valensiya” klubuna icarəyə verilib və sonradan transfer olunub. Qeyd edək ki, müdafiəçi Kolumbiya yığma komandasının heyətində də yer alıb.

## Yunanıstanda hakim evinin qarşısında döyülüb



Yunanıstan Superliqasında bu həftə keçirilməli olan 15-ci turun oyunları təxirə salınıb. Yunanıstan Futbol Federasiyasının rəsmi saytında yer alan məlumatda deyilir ki, səbəb FIFA referisi Thanasis Tzilosun evinin qarşısında naməlum şəxslər tərəfindən döyülməsidir. Dörd maskalı şəxs hakimə hücum edərək ona zərbələr endiriblər. Daha sonra onlar hadisə yerindən qaçıblar. Başından və ayağından xəsarət alan Tzilos xəstəxanaya yerləşdirilib. Təxirə salının oyunların qış fasiləsindən sonra keçiriləcəyi bildirilib.


*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.**
**“Azərbaycan” nəşriyyatında çap olunur**
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 5500**